QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 087 (6287) 20 may 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezident İlham Əliyevin reytinqi - İnam indeksi

*STM-in "Prezidentin fəaliyyəti ictimai rəydə" sorğusunun nəticələri Azərbaycan xalqının Prezident İlham Əliyevə böyük etimad bəslədiyinin bir daha təsdiqidir*



Bax 2

## "Azərbaycan-Türkiyə münasibətləri dünya dövlətləri üçün nümunədir"



Mayın 19-da Yeni Azərbaycan Partiyası sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımla görüşüb.

Bax 3




## "Azərbaycan hərbi əsir statusu olan bütün erməniləri sərbəst buraxıb və geri qaytarıb"




## Rus generalı Muradovu Qarabağda kim əvəz edəcək?

## Həkimdən açıqlama: "Açıq havada maska taxmağın mənası yoxdur"



"Açıq havada maska taxmaq ilk vaxtdan bəri müzakirə olunan məsələlərdəndir". Bunu SİA-ya açıqlamasında həkim professor Adil Qeybulla deyib. Professor bildirib ki, ikinci dalğadan sonra karantin sərtləşdirilən zaman Operativ...

Bax 7



Bax 7

## Armen Aşotyan: "Ermənistan biabırçı, rüsvayçı vəziyyətdədir"

Ölkə utancverici, rüsvayçı, rəzil bir vəziyyətdədir, ancaq xainin biri Ermənistanda fövqəladə seçkilər tətbiq edib və bu məsələdə də birləşmiş müxalifətin günahı var. SİA Ermənistana məxsus armenianreport...

## Xəbərdarlıq: "Repetitorluğun genişlənməsi fəsadlara yol açacaq"



"Nəzərə çatdırım ki, SSR dövrünü nəzərə alsaq, o dövrdə də müxtəlif fənnlərdən şagirdlər hazırlığa gedirdilər. Yəni, repetitor fəaliyyəti o dövrdə də var...

Bax 12

## Ruslar tərəfindən "aşağılanan" ermənidən şikayət...



Həmişə "özgə millətləri də özlərinin xeyrinə qışqırmağa, yalan xəbərlər yaymağa cəlb etməyi bacaran" (rus yazarı Aleksey Jemçujnikov)...

Bax 13

## "Boşanmalar ən çox bu hallarda artmaqdadır"



Bax 14

## ABŞ Dövlət Departamenti amerikalıları Ermənistana səyahət etməməyə çağırıb




Bax 7

## Levandovski "Bavariya"dan ayrılır?



Bax 16

# Azərbaycan və Rusiya Prezidentləri arasında telefon söhbəti olub



Mayın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin telefon söhbəti olub.

2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların hərfi və ruhuna tam uyğun olaraq təhlükəsizliyin və sabitliyin təmin edilməsi üzrə praktiki vəzifələrin həlli vurğulanmaqla regionda münaqişədən sonrakı vəziyyətlə bağlı məsələlər müzakirə edilib.

Bu kontekstdə Azərbaycan-Ermənistan sərhədində bu yaxınlarda baş vermiş hadisələrə diqqət yetirilib. Azərbaycan və Rusiya prezidentlərinin ümumi fikrinə görə nizamlama yalnız siyasi-diplomatik metodlarla aparılmalıdır. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin qeyd edib ki, Rusiya tərəfi vasitəçilik səylərini və Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası prosesinin başlanması barədə razılıq əldə edilməsinə yönəlmiş konsultativ köməklik göstərməyi davam etdirəcək.

İkitərəfli gündəliyin mühüm aspektlərinə dair fikir mübadiləsi də aparılıb. Prezident İlham Əliyev Rusiya vaksinlərinin göndərilməsinə görə səmimi minnətdarlığını ifadə edib. Bütün istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsində hər iki tərəfin maraqlı olduğu bildirilib. Hökumətlər, müvafiq nazirliklər və idarələr xətti ilə intensiv təmaslar buna yönəldiləcək.

# Prezident İlham Əliyevin reytinqi - İnam indeksi

## *STM-in "Prezidentin fəaliyyəti ictimai rəydə" sorğusunun nəticələri Azərbaycan xalqının Prezident İlham Əliyevə böyük etimad bəslədiyinin bir daha təsdiqidir*

Yenə də Azərbaycan Prezidenti İlham Əliyevin reytinqi yüksək olaraq qalır. Prezident İlham Əliyevin son dövrdə ölkədə həyata keçirilən inqilabi islahatlarla bağlı cəmiyyətin ictimai rəyinə müstəsna əhəmiyyət verməsini nəzərə alaraq, Sosial Tədqiqatlar Mərkəzi (STM) 2019-cu ildən etibarən yeni formatlı sosioloji sorğulara start verib. Təqdim edilən növbəti hesabat, Sosial Tədqiqatlar Mərkəzi "İnam indeksi" jurnalının 5-ci sayında "Prezidentin fəaliyyəti ictimai rəydə" sorğu Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyəti də respondentlər tərəfindən qiymətləndirilib. Belə ki, Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonrakı dövr üçün respondentlərin əsas gözləntiləri ölkəmizin siyasi-iqtisadi gücünün artacağı (60,6%) və regionda mövqeyinin güclənəcəyi (51,6%), Ermənistan üzərində təsirinin daha da artacağı (46,9%) olub. Bundan başqa, respondentlərin 49,6%-i Azərbaycan və Türkiyənin regionun taleyinin müəyyənləşməsində mühüm rol oynayacağını, 45,8%-i Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü qəbul edəcəyini, 32,4%-i regional əməkdaşlığın və inteqrasiyanın sürətlənəcəyini, 41,7%-i Türkiyənin regionda hərbi iştirakının artacağını, 38,7%-i isə Rusiya, Türkiyə və Azərbaycan müttəfiqliyinin güclənəcəyini düşünür.



Respondentlərin 81,8%-i postmüharibə dövrü üçün Qarabağda Böyük Qayıdış planları (təşəbbüsləri) ilə bağlı verilən qərarları (mesajları) müsbət, 1,6%-i mənfi qiymətləndirib. 7,5% respondent isə neytral mövqe sergiləyib. 8,4% respondent Böyük Qayıdış planları (təşəbbüsləri) ilə bağlı verilən qərarlar haqqında heç bir məlumatının olmadığını bildirib.

Respondentlər tərəfindən II Qarabağ müharibəsi şəhidlərinin ailələri, veteranları və iştirakçıları ilə bağlı dövlət siyasətində həmin ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasının (74%), həmin ailələr üçün aylıq təqaüdün miqdarının artırılmasının (70,8%), sosial problemlərinin həll edilməsinin (69,4%), müharibədə yaralananların müalicə üçün xarici ölkələrə göndərilməsinin (67,7%), orden və medalların təsis olunması və silahlı qüvvələrin şəxsi heyətinin qəhrəmanlıqlarının yüksək qiymətləndirilməsinin (61%), əlillik dərəcələrinin düzgün təyin edilməsi (63,3%) və vaxtında müəyyən olunmasının (67,6%), müxtəlif səviyyələrdə imtiyazların verilməsinin (55,8%), onlarla aidiyyəti orqanların rəhbərlərinin birbaşa görüşlərinin keçirilməsinin (51%), həbsdə olan yaxınlarının əfv edilməsinin (37,7%) daha obyektiv nəzərə alınması qeyd olunub.

Sorğuda iştirak edənlərin fikrincə, Prezidentin azad edilmiş ərazilərə səfərləri Qarabağın dirçəlişinin və qayıdışın tezliklə reallaşmasının (61,7%), Ali Baş Komandanın bütün quruculuq tədbirlərinə bilavasitə rəhbərlik etməsinin (61%), Azərbaycanın ərazi bütövlüyünün təminatının (59,8%), Prezidentin tarixi abidələrə xüsusi önəm verməsinin (59,6%), işğaldan azad olunmuş ərazilərimizdə sabitlik və təhlükəsizliyin təminatının (58,9%), Böyük Qayıdışa Prezidentin verdiyi əhəmiyyətin (58,4%), Vətənə, xalqa, milli-mənəvi, tarixi və mədəni dəyərlərə verilən xüsusi önəmin (54,3%), bütün dünya azərbaycanlılarının Qarabağın dirçəlişinə cəlb etməsinin (54,6%), işğaldan azad edilmiş ərazilərin inkişafını və bölgəyə investisiya yatırımını stimullaşdırmasının (50,3%), Ermənistandakı qüvvələrə və onların havadarlarına xəbərdarlığının (48,3%) və informasiya müharibəsinə töhfə verməsinin (36,3%) göstəricisidir.

Prezidentin Qələbə tonqalını Şuşada Cıdır düzündə alovlandırmasını 73.9% respondent qələbə, 72%-i şəhidlərimizin qanı ilə qazanılmış Şuşa zəfərinin təntənəsi/qələbə simvolu, 65.2%-i Şuşanın Azərbaycanın mənəvi-mədəni paytaxtı olmasının dünyaya nümayişi, 64.7%-i vətənpərvərlik, 62.2%-i torpaq və bayraq sevgisi, 58.9%-i Prezidentin dəyər və ənənələrimizə sadiqliyi, 58.9%-i milli birlik, 58.4%-i ərazi bütövlüyü, 57.4%-i həmrəylik, 54.3%-i tarixi irsin xilası, 49.6%-i Qarabağda bərpa və quruculuq strategiya və planları kimi dəyərləndirib və bununla Prezidentin dünyaya mesajlar verdiyini bildiriblər.

Qarabağa qayıdışın ölkə başçısı üçün prioritet olması fikri ilə respondentlərin 84,6%-i tam, 12,2%-i qismən razıdır. Prezidentin tarix və mədəniyyət abidələrinin bərpası ilə bağlı fəaliyyətinə münasibət bildirən respondentlərin 73,9%-i düşünür ki, Prezidentin Azıx mağarasına getməsi işğaldan azad edilmiş bütün ərazilərimizdəki tarix və mədəniyyət abidələrinin bərpa ediləcəyindən xəbər verir. Sorğuda iştirak edənlərin 68,9%-i Prezident İlham Əliyevi Azərbaycan mədəniyyəti və tarixi ilə bağlı Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi görür. Respondentlərin 67,8%-nin fikrincə, Prezidentin Şuşada Natəvanın abidəsinin açılışında iştirak etməsi, Vaqifin büstünü və məqbərəsini ziyarət etməsi Qarabağa xüsusi diqqətin təzahürüdür. 67,2% respondent bu qənaətdədir ki, bu, Azərbaycanın tarixi-mədəni irsinə hörmətin, sevginin və qayğının, 61% isə Azərbaycanın öz tarixi və əzəli ərazilərinə sahibliyinin göstəricisidir.

Beləliklə, Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyətə ictimai rəyin münasibətinin və Prezidentə inam indeksidir. Keçirilən rəy sorğusu Prezidentin demək olar ki, bütün fəaliyyət sahələrini əhatə etmişdir. Buna görə də əslində sözügedən sorğunun nəticələrini Azərbaycan xalqının Prezident İlham Əliyevin siyasi kursuna yüksək etimadı kimi də qiymətləndirmək olar. Çünki Azərbaycanda ictimai-siyasi sabitliyin qorunub saxlanması, sosial-iqtisadi inkişafın davam etdirilməsi, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımların atılması məhz Prezidentin düşünülmüş siyasi fəaliyyəti nəticəsində mümkün olmuşdur. Təbii ki, bu amillər dövlət başçısının fəaliyyətini yüksək qiymətləndirməyə səbəb olmuşdur.

Bir sözlə, Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu həmişə öz dinamikliyi, intensivliyi və məqsədyönlülüyü ilə xarakterizə olunur, daim milli maraqlara söykənir.

Görünən odur ki, Sosial Tədqiqatlar Mərkəzinin sorğusuna respondentlərin verdiyi cavablar Azərbaycan xalqının Prezident İlham Əliyevə böyük etimad bəslədiyini bir daha təsdiq edir. Sözsüz ki, bu etimadın əsasında dövlət başçısının xalqın milli maraqlarına cavab verən siyasi kursa inam indeksidir.

**Rəfiqə HÜSEYNOVA**

# “Azərbaycan-Türkiyə münasibətləri dünya dövlətləri üçün nümunədir”

*YAP Sədrinin müavini Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri ilə görüşüb*









***Mayın 19-da Yeni Azərbaycan Partiyası sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımla görüşüb.***

SİA-nın verdiyi məlumata görə, görüşdə iki ölkə arasında dostluq və qardaşlıq əlaqələrinin əhəmiyyətindən danışan YAP sədrinin müavini qeyd edib ki, Ümummilli Liderimiz Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamının tarixiliyi özünün siyasi, iqtisadi, mənəvi, eləcə də geostrateji mahiyyəti ilə ötən dövr ərzində sübuta yetirilib. Onun sözlərinə görə, Azərbaycanla Türkiyənin münasibətlərinin güclənməsində hər iki ölkənin liderləri cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın müstəsna rolu var.

Azərbaycanla Türkiyənin bir-birinə hər zaman dəstək verdiyini deyən YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, 44 günlük Vətən müharibəsi zamanı qardaş Türkiyənin Azərbaycana qətiyyətli, birmənalı mənəvi-siyasi dəstək verməsi sevindirici və qürurverici haldır. Tahir Budaqov, həmçinin Yeni Azərbaycan Partiyası və Türkiyənin Ədalət və İnkişaf Partiyasının iki ölkə arasında münasibətlərin daha da güclənməsinə öz töhfələrini verdiyini diqqətə çatdırıb.

Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Azərbaycana səfər etməkdən məmnunluğunu bildirib. O qeyd edib ki, Türkiyə və Azərbaycanın münasibətləri möhkəm təməllərə əsaslanır. Şamil Ayrım vurğulayıb ki, Azərbaycan-Türkiyə münasibətləri dünya dövlətləri üçün nümunədir. Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Vətən müharibəsində Azərbaycanın qazandığı qələbənin tarixi əhəmiyyətini də vurğulayıb.

Türkiyə və Azərbaycan arasında qardaşlıq münasibətlərinin inkişafında Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın səylərini yüksək dəyərləndirən Şamil Ayrım əminliklə ifadə edib ki, bütün dünya üçün dostluq, birlik və tərəqqi nümunəsi olan əlaqələrimiz əbədiyyətə qədər davam edəcək. Şamil Ayrım Yeni Azərbaycan Partiyası və Türkiyənin Ədalət və İnkişaf Partiyasının əlaqələrinin hazırkı səviyyəsindən də məmnunluğunu ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Görüşün sonunda qarşılıqlı xatirə hədiyyələri təqdim edilib.

***Ceyhun Rasimoğlu***

# YAP Veteranlar Şurasının təşkilatçılığı ilə videokonfrans keçirilib




Mayın 19-da Yeni Azərbaycan Partiyasının Mərkəzi qərargahında partiyanın Veteranlar Şurasının təşkilatçılığı ilə “Demokratiya, liberalizm və milli-mənəvi dəyərlər” mövzusunda videokonfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, YAP Veteranlar Şurasının üzvlərinin, partiyanın Bakı, Abşeron, Sumqayıt şəhər təşkilatlarının Aparat rəhbərlərinin və Gənclər Birliyinin nümayəndələrinin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə açan YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə mövzunun aktuallığından bəhs edərək bildirib ki, Azərbaycanın demokratiya təcrübəsi nümunə olmaqla yanaşı, milli-mənəvi dəyərlərə bağlılığı ilə diqqəti cəlb edir. O, azərbaycançılıq ideyasının dövlətçiliyimizin əsasını təşkil etdiyini bildirib. Arif Rəhimzadənin sözlərinə görə, Azərbaycan yerləşdiyi coğrafi məkana görə müxtəlif mədəniyyətləri, dinləri, sivilizasiyaları bir araya gətirir. Dünyaya inteqrasiya siyasətini uğurla həyata keçirən ölkəmizdə milli-mənəvi dəyərlərimizə hörmət, bağlılıq, onların inkişaf etdirilməsi prioritetdir.

Məruzəçi, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, mövzu nəinki Azərbaycanın, dünyanın gündəmində olan əsas məsələlərdən biridir: “Ona görə də bu gün faktiki olaraq biz dəyərlərin hansı səviyyədə toqquşmasına, bəzi dəyərlərin iflasa uğramasına, yeni dəyərlərin gündəmə gəlməsinə diqqət yönəldəcəyik. Liberal ideyalar və onların Qərbdə inkişafı, Qərb vasitəsilə dünyaya çatdırılması, transformasiyaya uğradıqdan sonra alətə çevrilməsi məsələləri geniş müzakirə olunur. Liberalizm azadlıq sözündəndir. Liberalizm ideyası müxtəlif formalarda öz əksini tapıb. Siyasi, iqtisadi, sosial, klassik, müasir liberalizm var. Bu ideyalar Qərbdə hələ 1603-1700-cü illərdə Con Lokkun əsərlərində öz əksini tapıb. Bizi maraqlandıran məsələ bu ideyalar əsasında dünyanın nizamının dəyişməsidir. Qərbdə olan ideya dünyada haradasa könüllü, yarıkönüllü, məcburi, təzyiqlə, təkidlə, hədə-qorxu ilə həyata keçirilməyə başlandı. Heç də təsadüfi deyil ki, məşhur ABŞ tədqiqatçılarından biri əsərində yazmışdır ki, artıq tarix qurtardı. Çünki sübut olundu ki, liberalizm ən gözəl ideyadır”.

Komitə sədri qeyd edib ki, hazırda analitiklər və ekspertlər qlobal geosiyasi nizamın gələcəyi ilə bağlı müxtəlif proqnozlar verirlər. Qlobal miqyasda müşahidə edilən geosiyasi proseslər bəşəriyyətin daha yüksək səviyyədə liberal nizamda yaşayacağına dəlalət edir. Bütövlükdə bu mövzuda aparılan təhlillər və verilən proqnozlar çox maraqlıdır. Tədqiqatçılar etiraf edirlər ki, Şərq və Cənubun dünya siyasətində rolu yüksəlir.

Məruzəçi dünyanın ikili siyasətindən də geniş bəhs edərək bildirib ki, böyük dövlətlər xarici siyasətlərində ədalət prinsipinə üstünlük verməli, öz maraqlarını digərlərinə zorla qəbul etdirmək prinsipindən yan keçməli və ikili standartlara son qoymalıdırlar. Bu şərtlərə əməl edilməsə, dünyada sakitlik yaranmayacaq. Müxtəlif regionlarda bu və ya digər intriqalar baş qaldıracaq. Real liberal dünya nizamının yolu yuxarıda vurğulanan prinsiplərə əməl etməkdən keçir.

YAP Veteranlar Şurasının üzvləri Misir Mərdanov, Adilə Abasova, Dilarə Seyidzadə mövzu ətrafında çıxış ediblər. Diskussiya şəklində davam edən videokonfransda YAP Nizami rayon təşkilatının Aparat rəhbəri Ramil Vəlibəyovun, YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin fəal üzvü Anar Əliyevin və partiyanın Sumqayıt şəhər təşkilatı Gənclər Birliyinin fəal üzvü Fəridə Əliyevanın sualları məruzəçi tərəfindən cavablandırılıb.

# Azərbaycan Prezidenti ilə ABŞ Prezidentinin müşaviri arasındakı telefon danışığı Gürcüstan mətbuatının diqqət mərkəzində olub

*Gürcüstanın aparıcı “interpressnews.ge” “report.ge” informasiya portalları, eləcə də, “1tv.ge” televiziya kanalı ABŞ Prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivanın Azərbaycan Prezidenti İlham Əliyevə telefon zənginə dair məqalə dərc ediblər.*



Ilham Aliyev: Azerbaijan is committed to peace and stability in the region

18 May, 2021 11:55

"Azerbaijan is committed to peace and stability in the region," the Azerbaijani President Ilham Aliyev said during a telephone conversation with Jake Sullivan, the National Security Adviser to the President of the United States, Joe Biden, the Azerbaijani media reports based on the press service of the President of Azerbaijan.

The President positively evaluated the post-conflict situation in the region and noted that the situation in the region, including the Azerbaijani-Armenian border, has been stable for six months since the end of the conflict.



ილჰამ ალიევი - სომხეთ-აზერბაიჯანის საზღვარზე არსებულ ვითარებაზე ერევნის რეაქციამ შესაძლოა, რეგიონში დაძაბულობა გამოიწვიოს

AZƏRTAC xəbər verir ki, rus, gürcü və ingilis dillərində yayımlanan materiallarda qeyd olunub ki, tərəflər arasındakı telefon danışığında ikitərəfli münasibətlər barədə məmnunluq ifadə edilib. Bu münasibətlərin hər iki dövlət və bölgə üçün sülh və təhlükəsizliyin təmin edilməsi baxımından əhəmiyyəti qeyd olunub. Eyni zamanda, Prezident İlham Əliyevin Azərbaycanın bölgədə sülh və sabitliyin təmin olunmasına sadiq qalması barədə fikirləri yer alıb.

Bundan başqa, mətbuatda Prezident İlham Əliyevin Ermənistanın destruktiv mövqeyi barədə fikirlərinə də diqqət çəkilir. Bildirilir ki, Prezident İlham Əliyev Ermənistanın sərhəd gərginliyi ilə bağlı qeyri-adekvat reaksiyasının və bu məsələni beynəlmiləlləşdirmək cəhdlərinin bölgədə gərginliyin artmasına gətirib çıxara biləcəyini qeyd edib və bütün mübahisələrin sülh yolu ilə və danışıqlar prosesi çərçivəsində həllinin vacibliyini vurğulayıb.

## Milli Məclisin sədri Romada İtaliya Deputatlar Palatasının sədri ilə görüşüb



Mayın 19-da Milli Məclisin sədri Sahibə Qafarova İtaliyaya rəsmi səfəri çərçivəsində Romada Monteçitorio sarayında İtaliya Respublikası Deputatlar Palatasının sədri Roberto Fiko ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Roberto Fiko Azərbaycan nümayəndə heyətini salamlayaraq, Milli Məclisin sədri ilə görüşdən məmnun olduğunu bildirib. Ölkələrimizin əlaqələrinin yüksək səviyyədə inkişaf etdiyini bildirən Roberto Fiko tərəflər arasında müzakirə edilməli mövzuların spektrinin geniş olduğunu deyib. Qarabağ münaqişəsinin başa çatmasından söz açan palata sədri sülhün davamlı olacağına inamını söyləyib.

Səmimi görüşə görə təşəkkürünü bildirən Milli Məclisin sədri dost və strateji tərəfdaş olan İtaliya Respublikasına ilk səfərindən məmnunluğunu ifadə edib. Bildirib ki, bu səfərin bütün dünyanı bürüyən pandemiya dövründə baş tutması Azərbaycan ilə İtaliya arasındakı münasibətlərin yüksək səviyyədə inkişafından xəbər verir.

Milli Məclisin sədri bildirib ki, iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri münasibətlərimizin inkişafına yeni təkan verib. Xüsusilə 2020-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri ölkələrimiz arasındakı münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırıb. Ölkələrimiz arasında imzalanmış sənədlər Azərbaycan ilə İtaliyanın siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrinin inkişafının möhkəm hüquqi bazasını təşkil edir.

Bildirilib ki, Azərbaycan ilə İtaliya arasında mədəni sahədə münasibətlər də strateji tərəfdaşlıq ruhuna uyğun inkişaf etməkdədir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın 2018-ci ildə İtaliyaya rəsmi səfəri, Fondun İtaliyada mədəni abidələrin qorunması və bərpasında yaxından iştirakı, 2019-cu ildə İtaliyada ikinci Azərbaycan Film Festivalının keçirilməsi, 2020-ci ilin İtaliyada “Azərbaycan mədəniyyəti ili” elan edilməsi bu fikri bir daha təsdiqləyir.

Sahibə Qafarova diqqətə çatdırıb ki, 2020-ci il Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış bir il kimi daxil olub. Ölkəmiz öz torpaqlarını Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad edib. Milli Məclisin sədri Azərbaycanın ədalətli mövqeyinə dəstək ifadə edən bütün italiyalı parlamentarilərə dərin təşəkkürünü bildirib.

S.Qafarova xüsusi vurğulayıb ki, artıq Qarabağ münaqişəsi başa çatıb və Azərbaycanın Ermənistanın işğalından azad edilmiş ərazilərində yeni dövr - bərpa və yenidənqurma dövrü başlayıb. Amma bunun üçün azad edilmiş ərazilər, ilk növbədə, minalardan təmizlənməlidir. Sahibə Qafarova deyib ki, Ermənistan minalanmış ərazilərin xəritələrini Azərbaycan verməkdən imtina edir. Bunun beynəlxalq hüquqa görə müharibə cinayəti olduğunu bildirən Milli Məclisin sədri qeyd edib ki, beynəlxalq ictimaiyyət bu məsələyə biganə qalmamalıdır. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb, parlamentlərarası dialoqun bundan sonra da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

## Azərbaycanın Baş naziri Rusiyada səfərdədir



Azərbaycanın Baş naziri Əli Əsədov Rusiyaya rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Baş naziri Əli Əsədovu “Vnukovo-2” hava limanında Rusiyanın dövlət rəsmiləri qarşılayıblar. Azərbaycan Hökumətinin rəhbərinin şərəfinə fəxri qarovul düzülüb.

Qeyd edək ki, mayın 20-də rəsmi səfər çərçivəsində Baş nazirin başçılıq etdiyi nümayəndə heyətinin Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin və digər rəsmi şəxslərlə görüşləri nəzərdə tutulub.

## “Azərbaycan hərbi əsir statusu olan bütün erməniləri sərbəst buraxıb və geri qaytarıb”



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan tərəfindən hələ də “hərbi əsirlər” ilə bağlı iddialara münasibət bildirib. AZƏRTAC xəbər verir ki, L.Abdullayeva bununla bağlı deyib: “Ermənistanın Azərbaycanı erməni “hərbi əsirlərin” saxlanmasında davamlı ittiham edən yalan və iftira dolu iddiaları tərəfimizdən mütəmadi qaydada cavablandırılır.

Vurğulamaq istərdim ki, Azərbaycan beynəlxalq hüququn aliliyinə, o cümlədən məhbusların tutulması əməliyyatları və onlarla rəftara aid olan beynəlxalq humanitar hüquq və beynəlxalq insan hüquqları üzrə öhdəliklərinə riayət etməyə sadiqdir. Üçtərəfli Bəyanatda nəzərdə tutulduğu kimi və beynəlxalq humanitar hüquqa əsasən üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq, Azərbaycan hərbi əsir statusu olan bütün erməniləri sərbəst buraxıb və geri qaytarıb.

Hazırda Azərbaycanda bütün hərbi əməliyyatların dayandırılmasını nəzərdə tutan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından bir neçə həftə sonra Azərbaycan ərazisinə qanunsuz göndərilən erməni təxribatçıları həbsdə saxlanılır. Azərbaycanın topladığı məlumatlar və dəlillərə əsasən, noyabr ayının son 10 günündə döyüş əməliyyatları bitdikdən sonra Ermənistanın Şirak bölgəsindən 60 nəfərdən çox üzvü olan dəstə Azərbaycan ərazilərinə göndərilib. Bu dəstə 2020-ci ilin noyabr ayının sonu və dekabr ayı da daxil olmaqla, Azərbaycan mülki şəxslərinə və hərbi qulluqçularına qarşı terror hücumları həyata keçirərək, 4 azərbaycanlı hərbçini öldürüb və erməni işğalı illərində dağıdılmış bölgədəki rabitə xətlərinin bərpası üçün sadəcə, öz işini görən, mobil rabitə şirkətinin əməkdaşı olan bir mülki şəxsi isə ağır yaralayıb.

Azərbaycan bu şəxsləri həm beynəlxalq, həm də daxili hüquqa uyğun olaraq qanuni əsasda həbsdə saxlayır. Onlar Azərbaycan qanunvericiliyinə uyğun olaraq, törədilmiş qətl, təxribat və digər cinayətlərə görə mühakimə olunurlar. Qanunlara uyğun olaraq hazırda Azərbaycan 44 gün davam edən Vətən müharibəsindən sonra tutulan bütün şəxslərlə bağlı onlara qarşı olan dəlilləri qiymətləndirməklə ətraflı araşdırma aparır. 2021-ci il mayın 4-də ölkəmiz humanitar addım ataraq, saxlanılan şəxslərdən 3-nü ittihamlar irəli sürmədən Ermənistana qaytarıb.

Ermənistanın məsələni davamlı şəkildə yanlış təqdim etdiyini nəzərə alaraq, ölkəmiz saxlanılan şəxslərin saxlanma səbəbləri, şəraiti və onlarla rəftar ilə bağlı daha çox şəffaflığı təmin edərək, araşdırmanı davam etdirir. Azərbaycan, eyni zamanda, məhbuslara insani münasibət göstərilməsi, onlarla ədalətli və qanuni şəkildə rəftarı təmin etməklə bu xüsusda üzərinə götürdüyü beynəlxalq öhdəliklərini yerinə yetirməyə sadiq qalır”.

# Zamanın sınaqlarından çıxan əməkdaşlıq-Belarus-Azərbaycan etibarlı tərəfdaş





### Prezident İlham Əliyev: "Bu gün Belarus və Azərbaycan qarşılıqlı fəaliyyətin, əməkdaşlığın yüksək səviyyəsini nümayiş etdirir"

Bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır, həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycanın bu sevincinə şərik olan Azərbaycan-Belarus əlaqələrinin inkişafı və münasibətlərin yüksək səviyyədə olması beynəlxalq arenada da özünü göstərir. Bu, ilk növbədə Prezident İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko arasında mövcud dostluq əlaqələrinin nəticəsidir. İqtisadi əlaqələrimiz ildən ilə sürətlənir. Hətta pandemiya dövründə iki ölkə arasında əməkdaşlıq imkanları genişlənir.

Qeyd edək ki, iki ölkə arasında diplomatik əlaqələr 1993-cü ildə qurulub və Azərbaycan-Belarus münasibətləri hazırda özünün ən yüksək zirvəsinə çatıb. Bir-birindən kifayət qədər coğrafi uzaqlıqda yerləşmələrinə, ayrı-ayrı mədəniyyətlərin daşıyıcıları olmalarına baxmayaraq, bu iki dövlət bir-birinin etibarlı tərəfdaşı və yaxın dostudur. Əlaqələrin inkişaf dinamikasına nəzər saldıqda aydın olur ki, müxtəlif sahələri əhatə edən münasibətlər qarşılıqlı faydalı əməkdaşlığa və strateji tərəfdaşlığa əsaslanır. Ən əsas məqam isə ondan ibarətdir ki, iki dövlət arasında əlaqələrin bu səviyyəyə çatmasında dövlət başçılarının şəxsi dostluq münasibətləri əvəzsiz rol oynayır. İndiyədək dövlət başçıları dəfələrlə qarşılıqlı rəsmi və işgüzar səfərlər ediblər. Bu səfərlər ilk növbədə prezidentlər arasında olan dostluğun və strateji xarakter daşıyan Belarus-Azərbaycan əməkdaşlığının yüksək məzmun və mahiyyətinin təsdiqidir.

Azərbaycan-Belarus prezidentlərinin qarşılıqlı səfərləri iki ölkə arasında münasibətlərin dinamik inkişafından xəbər verir. Bu baxımdan da, istər bu yaxınlardı, yəni aprelin 14-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana səfəri, istərsə də may ayının 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının müdafiə naziri Viktor Xreninini qəbulu zamanı keçirilən görüşlər bir daha Azərbaycan-Belarus aravsında əməkdaşlığın zamanın sınağından çıxdığının reallığıdır.

### "Bizdə bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Prezident Aleksandr Qriqoryeviç Lukaşenkonun Azərbaycana bu yaxınlardakı səfəri bunu bir daha təsdiq etdi"

Azərbaycan Prezidenti İlham Əliyev Belarusun müdafiə naziri Viktor Xrenini qəbul edərkən bildirmişdir: "Əminəm ki, səfəriniz uğurlu olacaq. Hərbi sahədə əməkdaşlığımızla bağlı məsələləri həmkarınızla ətraflı müzakirə edəcəksiniz. Bizdə bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Prezident Aleksandr Qriqoryeviç Lukaşenkonun Azərbaycana bu yaxınlardakı səfəri bunu bir daha təsdiq etdi".

Prezident İlham Əliyev onu da bildirib ki, Prezident Aleksandr Qriqoryeviç Lukaşenkonun Azərbaycana bu yaxınlardakı səfəri bir daha bu münasibətlərin daha da sıx olacağını deyib: "Biz onunla çox ətraflı söhbət etdik, ikitərəfli münasibətlərin geniş gündəliyinə dair danışıqlar apardıq, o cümlədən ölkələrimiz arasında artıq qədim tarixə malik olan hərbi-texniki əməkdaşlıq məsələlərini müzakirə etdik. Bu istiqamətdə, həmçinin bütün başqa istiqamətlərdə əməkdaşlığı davam etdirmək əzmindəyik. Ona görə ki, bu gün Belarus və Azərbaycan qarşılıqlı fəaliyyətin, əməkdaşlığın yüksək səviyyəsini nümayiş etdirir".

### "Mən Belarus şirkətlərini Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasında iştiraka dəvət etmişəm"

Qeyd edək ki, Azərbaycan dövlətinin elan etdiyi prioritetlərdən biri işğaldan azad edilmiş torpaqlarımızın bərpası və yenidən qurulmasıdır. Artıq bu istiqamətdə bir neçə aydır ki, infrastruktur layihələrinin icrasına başlanılıb. İşğaldan azad olunmuş rayonlarımızda yeni yollar çəkilir, enerji təminatı yaradılır. Prezident İlham Əliyevin indiyədək bir neçə dəfə Qarabağ bölgəsinə səfər etməsi göstərir ki, bütün bu məsələlər dövlət başçısının xüsusi nəzarətindədir.

İkinci Qarabağ müharibəsində Azərbaycanın Qələbəsi və işğal edilmiş ərazilərin geri qaytarılması sayəsində bir çox dövlətlərin ölkəmizə marağı daha da artıb. Onlar Ermənistan tərəfindən dağıdılmış ərazilərin yenidən qurulmasında iştirak etməyə çalışırlar. Lakin dövlətimiz dost və tərəfdaş ölkələrin Qarabağın bərpasında iştirak etməsində maraqlıdır. Belarus Prezidenti də ölkəsinin postmünaqişə dövründə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası prosesində iştirakının tərəfdarıdır. Təsadüfi deyil ki, Aleksandr Lukaşenkonun Azərbaycana səfəri zamanı Belarusun da azad olunmuş ərazilərimizin yenidən qurulmasında iştirakı məsələsi müzakirə olundu. "Biz Qarabağda işğaldan azad olunmuş ərazilərin bərpasında bir sıra istiqamətlər üzrə - həm şəhərsalma, həm infrastrukturun yaradılması, kənd təsərrüfatının inkişafı sahələrində Belarus şirkətlərinin gələcək iştirakı ilə bağlı məsələləri ətraflı müzakirə etdik. Biz dünən də, bu gün də Belarusun aqroşəhərciklər yaradılması sahəsində təcrübəsini geniş müzakirə etdik. Mən Aleksandr Qriqoryeviçə məlumat verdim ki, Qarabağ "yaşıl enerji" zonası elan edilib və birinci "ağıllı kənd" layihəsi praktiki olaraq həyata keçirilməyə hazırdır. Əlbəttə, bu sahədə Belarusun təcrübəsi nəzərə alınmaqla bu istiqamətdə işləmək çox maraqlı olardı. Mən daha sonra dedim ki, biz ərazilərin bərpası işlərinə yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Belarus da Azərbaycan üçün belə ölkədir. Qarabağın bərpası layihələrində üç dost ölkədən olan şirkətlər artıq işləyirlər. Ümidvarıq ki, dördüncü ölkə Belarus olacaq", - deyə cənab İlham Əliyev bildirmişdir.

Və mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının müdafiə naziri Viktor Xrenini qəbulu zamanı keçirilən görüşdə də bir daha dövlət başçımız 30 ilə yaxın işğala məruz qalmış torpağımızda törədilmiş vandalizmin və dağıntılarla bağlı məlumat verərək bildirdi ki, işğaldan azad olunan torpaqlarımızın bərpasında Belarus şirkətlərini Azərbaycana dəvət edib: "Mən Belarus şirkətlərini Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasında iştiraka dəvət etmişəm. Bir qədər sonra mən sizə həmin ərazilərdən çəkilmiş fotoşəkilləri göstərərəm. Onlar 30 ilə yaxın işğala məruz qalmış torpağımızda törədilmiş vandalizmin və dağıntıların səviyyəsini əyani şəkildə göstərir".

### "Ölkələrimiz arasında hərbi, hərbi-texniki sahədə əməkdaşlıq qədim tarixə malikdir və çox yaxşı nəticələr verir"

Dövlət başçısı, həmçinin iki ölkə arasında qədim tarixə malik olan hərbi- texniki sahədə əlaqələrin olduğunu da vurğulayıb: "Dediyim kimi, ölkələrimiz arasında hərbi, hərbi-texniki sahədə əməkdaşlıq qədim tarixə malikdir və çox yaxşı nəticələr verir. Buna görə, əminəm ki, sizin həmkarlarınızla diskussiyalar, fikir mübadiləsi bu sahədə qarşılıqlı fəaliyyətin daha da inkişaf etdirilməsi işində faydalı olacaq".

Bəli, Belarus hər zaman Azərbaycana dost münasibəti göstərən dövlətdir. Təsadüfi deyil ki, 44 günlük müharibə dövründə də bu ölkədə Azərbaycanın maraqlarına zidd olan hər hansı hadisə baş vermədi. Prezident İlham Əliyev bunları görür və yüksək dəyərləndirir. Bu baxımdan, Belarusun Qarabağın dirçəldilməsində iştirak etmək niyyətində olması tamamilə düzgündür. Nəzərə alsaq ki, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının və sənayenin inkişafı, alternativ enerji mənbələrinin yaradılması üçün böyük imkanlar var, Belarus şirkətləri bu sahədə əhəmiyyətli rol oynaya bilərlər. Hesab edirik ki, belaruslu dostlarımızın Qarabağın dirçəlişinə cəlb olunması faydalı ola bilər.

**RƏFİQƏ KAMALQIZI**

# “İrəli”dəki 1 il



**“İrəli” İctimai Birliyinin sədri Şahin Rəhmanlının təşkilatın yaranmasının ildönümü münasibətilə SİA-ya müsahibəsini təqdim edirik.**

***- İrəli Gənclər təşkilatı yarandığı gündən indiyə kimi Azərbaycan gəncliyinə nə kimi töhfə verib?***

- Azərbaycan gəncliyi bu gün çox dinamik inkişaf mərhələsindədir. Gənclərin bu inkişafı özünü sosial-ictimai, mədəni, siyasi və digər sahələrdə qabarıq şəkildə göstərir. Gənclərin inkişafına dövlətimizin dəstəyi əvəzolunmazdır. Gənclər siyasəti dövlətimizin ən vacib prioritetlərindən birinə çevrilib. Bu gün Azərbaycanda cənab Prezident İlham Əliyev tərəfindən uğurla aparılan gənclər siyasəti öz yüksək nəticələri ilə gözönündədir.

Ali Baş Komandanın ölkə gəncliyinə əsas çağırışları məhz vətənpərvər ruh, təhsil, biliklərin, innovativ bacarıqların əldə olunması ilə bağlıdır. Biz də “İrəli” İctimai Birliyi olaraq hər zaman bu çağırışlara qoşulur və gənclərə töhfə verməyə çalışırıq. Əsas məqsədimiz bütün gənclərə çatmaq və gənclik üçün faydalı olmaqdır. Biz gənclərə öz fikirləri və təklifləri ilə çıxış etmək imkanı yaradırıq. Bu baxımdan hesab edirəm ki, “İrəli” yarandığı gündən bu günə hansı işlər görüb sualı çox geniş sualdır və haqqında saatlarla danışa bilərik. Ona görə də mən son bir neçə ildə gördüyümüz işlərlə bağlı kiçik məlumat vermək istərdim. “İrəli” İB tərəfindən gənclərin fərdi təşəbbüslərinə dəstək məqsədilə 100-dən çox fərdi layihədə onlara təşkilati dəstək göstərilib. Həmçinin, beynəlxalq layihələrdə iştirak edib özlərini təsdiq etmələri və Azərbaycanı layiqincə təmsil etmələrinə dəstək olmaq üçün pandemiya müddətindən əvvəl mütəmadi olaraq hər il 30-dan çox gəncin xarici layihələrdə iştirakını təmin edərək beynəlxalq rəqabətə davamlı gənclik şəbəkəsi formalaşdırılıb. Regionlarda yaşayan gənclərimizin də fərdi inkişafı üçün 3 mövsümü yekunlaşan və hər mövsümündə 1000-dən çox region gəncinin iştirak etdiyi “Azərbaycanın İntellektual Birincisi” kimi Naxçıvan Muxtar Respublikası da daxil olmaqla bütün respublikanı əhatə edən genişmiqyaslı layihələr həyata keçirilib. Bununla yanaşı gənclərin fəallığının və aktivliyinin artırılması, gənclərlə işləyən şəxslərin peşəkarlığının artırılması üçün beynəlxalq təcrübənin öyrənilməsi, bu sahədə onlarla kitabın tərcüməsi həyata keçirilib.

***- Vətən müharibəsi dövründə Azərbaycan reallıqlarının dünyaya çatdırılmasında “İrəli” İB hansı işləri görüb?***

- “İrəli” gəncləri hər zaman olduğu kimi Vətən müharibəsi dövründə də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiəsində öz birliyini göstərdi. Aparılan haqq mübarizəsində “güc birlikdədir” deyib arxa cəbhə gəncləri olaraq tarixi həqiqətləri məhz tarixi faktlarla əsaslandırdılar və öz mövqelərini bildirdilər. Təkcə “İrəli” gəncləri Tovuz döyüşləri zamanı 5 gün ərzində 100 mindən çox tvit ataraq siyasətçilərə, konqresmenlərə, müxtəlif ölkələrin rəsmilərinə, həmçinin xarici ölkə vətəndaşlarına haqq səsimizi çatdırıblar. Nəzərinizə çatdırmaq istəyirəm ki, bu dövrdə ön cəbhədə xeyli sayda “İrəli” gənci də yer alırdı. Elə mən özüm də Vətən müharibəsində könüllü yazıldım və döyüşlərdə iştirak etdim. Biz gənclərə nümunə olmalıyıq. Bu gün gənclərdə gördüyümüz bu ruh yüksəkliyində gənclərin özlərinə qarşı gördüyü diqqət və inamın çox güclü təsiri var. Belə ki, gənclərdə gördüyümüz bu vətənpərvər ruh gələcəyimizin inamlı əllərdə olduğunun təsdiqidir.

Gənclik çox böyük bir mübarizənin əsgəri kimi layiqli şəkildə bu döyüş tapşırığının öhdəsindən gəldi, düşmən layiqli şəkildə cavabını aldı. Bu zəfərimizin onlara dərs olacağına inanırıq. Bizim borcumuz gələcək nəsillərə şanlı tariximizi daha dərindən öyrətməkdir.

***- “İrəli” İctimai Birliyi olaraq bundan sonra daha hansı yeniliklərə imza atmağı planlayırsız?***

- Qarşıda planlarımız çoxdur. Biz bütün gənclərimizin təşəbbüslərini dəstəkləməyə hazırıq. Gəncləri əhatə edəcək və onların inkişafına yönələcək bütün təkliflər bizim marağımızdadır.

“İrəli” İctimai Birliyi tərəfindən gənclərin hərtərəfli inkişafı ilə bağlı indiyədək yüzlərlə geniştərkibli layihə həyata keçirilib və bu layihələr gənclərdə hərbi vətənpərvərlik hissinin aşılanması, informasiya müharibəsində gənclərin rolu, ölkəmizdə könüllü fəaliyyətinin təbliğ olunması ilə könüllülərin peşəkarlığının artırılması, xaricdə təmsilçilik, gənclərin intellektual potensialının inkişafına dəstək olub.

Həmçinin, bir neçə həftə bundan öncə “İrəli” İctimai Birliyi tərəfindən gənclərin fərdi inkişafına dəstək ola biləcək ideyaların reallaşdırılması üçün “İdeya Bankı” yaradılıb. Bu konsept çərçivəsində “İrəli” İB-ə üzv olan gənclərin maraqlı fikir və təklifləri dəyərləndiriləcək, “İdeya Bankı” onların həm fərdi inkişafı, həm də həyata keçirəcəkləri layihələr ilə ətrafında olan gənclərin inkişafına böyük təkan verəcək.

“İrəli” İctimai Birliyi tərəfindən bu sahədə işlər böyük sürətlə davam etdirilir. Post-pandemiya və post-karantin dövrünün yaratdığı çətinliklərə baxmayaraq, yaxın zamanlarda təşkilat tərəfindən bir neçə genişmiqyaslı layihənin həyata keçirilməsi nəzərdə tutulur. “İrəli” bundan sonra da, bu tipli layihələr və yeniliklərlə gənclərin qarşısına çıxacaq. Fürsətdən istifadə edərək, gənclərimizi ictimai birliyin fəaliyyəti ilə yaxından tanış olmağa, həyata keçirilən tədbirlər barədə ətraflı məlumat almaq üçün sosial şəbəkə hesablarımızı izləməyə dəvət edirik.

***- Artıq 1 ildir ki, qurumun sədrisiniz. Bu dövrdə qurumun fəaliyyətini necə qiymətləndirirsiniz?***

- Təşkilatımızın son bir il ərzindəki fəaliyyətinin pandemiya və Vətən müharibəsi dövrünə təsadüf etməsinə baxmayaraq, “İrəli” bu sınaqlardan da üzüağ çıxdı. İctimai Birlik tərəfindən bu müddət ərzində bir çox tədbirlər həyata keçirilib.

2020-ci ilin sonlarında xalqımız böyük bir tarixin canlı şahidi oldu - Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımız işğaldan azad edildi. Bu şanlı qələbənin qazanılmasında “İrəli” gəncləri də öz fəaliyyətləri ilə böyük töhfələr verdilər. Belə ki, Vətən müharibəsi dövründə gənclərimiz həm ön, həm də arxa cəbhədə fəal iştirak etdilər. Onu da xüsusi qeyd etmək lazımdır ki, Vətən müharibəsi dönəminədək “İrəli” İctimai Birliyi tərəfindən gənclərdə vətənpərvərlik hissinin aşılanması məqsədilə ölkənin ilk hərbi simulyasiya xarakterli düşərgəsi olan “Marş İrəli” kimi genişmiqyaslı layihələr həyata keçirilib. Bu da “Dəmir Yumruq” əməliyyatı zamanı informasiya müharibəsində “İrəli” gənclərinin də fəal iştirak etməsinə gətirib çıxardı və ölkəmiz şanlı qələbə qazandı. Bu mənada, “İrəli” İctimai Birliyinin son bir ildəki fəaliyyətini çox yüksək qiymətləndirirəm. Müqəddəs amal uğrunda öz canlarından keçən bütün şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan cansağlığı diləyirik.

Bu gün vaxtilə işğal altında olan torpaqlarımızda - Ağdamda, Laçında, Kəlbəcərdə, Şuşada və digər ərazilərimizdə Azərbaycan bayrağı dalğalanır, həmin ərazilərdə bərpa və quruculuq prosesi sürətlə davam edir. Biz də gənclər təşkilatı olaraq işğaldan azad edilmiş ərazilərdə öz layihələrimizi keçirmək üçün səbirsizliklənirik. İnanırıq ki, bərpa və quruculuq prosesi tezliklə başa çatacaq, “İrəli” İctimai Birliyi Qarabağımızın dilbər guşələrində öz layihələri ilə gəncliyin inkişafında böyük töhfələr verəcək.

***Aysel Məmmədova***

## Aydın Mirzəzadə: “Əməkdaşlıq hər iki ölkənin maraqlarına cavab verir”



“Azərbaycan-Belarus münasibətlərinin tarixi çox böyükdür və Sovet dönəmində hər iki müttəfiq respublikanın demək olar bütün sahələr üzrə əməkdaşlıq formaları var idi”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Millət vəkili vurğulayıb ki, müstəqillik bərpa edildikdən sonra Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə respublikalar arasında münasibətlər artıq müstəqil dövlətlər münasibətləri səviyyəsinə qalxdı.

“Həm Ulu Öndər, həm də Cənab Prezident Belarusla münasibətlərə xüsusi əhəmiyyət veriblər. Belarus da Azərbaycanın ərazi bütövlüyünü tanıyan dövlətlərdən biri olub, Azərbaycanla hərtərəfli münasibətləri genişləndirmək səviyyəsində olub. Bu münasibətlər o cümlədən hərbi-texniki sahədə də genişlənib. Sovet dövründən Belarus onun ərazisində olan hərbi potensialı qoruyub saxlaya, hətta dünya kommersiya bazarına çıxa bilib. Belarus hərbi texnikası, hərbi texnikaya qulluq dünyada hörmət edilən xidmətlərdən biri sayılır. Azərbaycanla Belarus həm birgə kooperasiya, həm ordunun modernləşməsi, hərbi-texniki əməkdaşlığın dərinləşməsi məsələlərini həmişə diqqətdə saxlayıblar və bu günlərdə Belarus müdafiə nazirinin Azərbaycana səfəri hərbi əməkdaşlığın möhkəmlənməsi, Belarusun Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsində iştirakı və bir də birgə layihələr geniş müzakirə olunub. Hesab edirəm ki, bu əməkdaşlıq hər iki dövlətin mənafeyinə uyğun gəlir.

Belarus Vətən müharibəsi dövründə Azərbaycanın apardığı hərbi əməliyyatları dəstəklədi və müharibədən sonra işğaldan azad edilən zonalarda bərpa işlərində yaxından iştirak etmək əzmini bildirdi və bu istiqamətdə işlər aparılır. Hal-hazırda isə, bütün sahələr, o cümlədən hərbi sahədə əməkdaşlıq da öz səmərəsini verməkdədir. Baxmayaraq ki, Belarus Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür, Azərbaycan Qoşulmama Hərəkatının sədridir, bununla belə əməkdaşlığımız uğurla davam edir və bu əməkdaşlıq hər iki ölkənin maraqlarına cavab verir”, deyə Aydın Mirzəzadə bildirib.

***İnam Hacıyev***

## Valeri Buaye etiraf etdi: “Ermənistan Fransanın bacısıdır”



“Ermənistan Fransanın bacısıdır və bizim onu atmağa, sahibsiz qoymağa haqqımız yoxdur”. SİA xəbər verir ki, Facebook səhifəsindəki bu yazını “Xalq Hərəkatı İttifaqı” Partiyasından Fransa Milli Məclisinin deputatı Valeri Buaye yazıb.

“Əlbəttə, Ermənistanın dövlət sərhəddində baş verənlərə görə və erməni məhbuslarının Azərbaycanda saxlanmasına qarşı Fransa hökumətini sərt müqavimət göstərməyə çağırmaq üçün bugünkü nümayişdə iştirak etdim”, deyə deputat Valeri Buaye bildirib.

Xatırladaq ki, Ermənistanın təxribatlarına, terrorçuluq, separatçılıq meyillərinə və hərəkətlərinə görə səssiz qalan Fransa, eyni zamanda işğalçı ölkənin qanunsuz hərəkətlərini hər zaman dəstəkləyib və ədalətsiz, ikili yanaşma sərgiləyib. Bununla yanaşı Fransa Ermənistanın haqsız mövqeyini müdafiə etməkdə davam edir. Hətta, Valeri Buayenin timsalında səlahiyyətlilər, rəsmilər də bu tərəfkeşliyi, ikili yanaşmanı etiraf edirlər. Görünür, Fransa prezidenti kimi digərləri də Ermənistanın tərəfini saxladıqlarını etiraf etməkdən nə çəkinmirlər, nə də utanmırlar.

***İnam Hacıyev***

## Heydər Əliyev Fondu Mirmahmud Mirəlioğlunun müalicəsini öz üzərinə götürdü



Koronavirusa yoluxan Klasssik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlunun müalicəsini Heydər Əliyev Fondu öz üzərinə götürüb. SİA xəbər verir ki, dünən partiya sədrinin vəziyyətinin yaxşı olmadığı barədə dostları paylaşım etmişdi. Eyni zamanda, onun ailə üzvlərinin də virusdan əziyyət çəkdiyi qeyd olunurdu.

# "Zəngəzur dəhlizi mütləq açılacaq"



**Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir**

**- Elşən müəllim, Zərgəzur ətrafında Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədlərinin bərpasından Ermənistanın hakim rejiminin hay-küy qaldırması nə dərəcədə onlara beynəlxalq dəstək qazandıra bilər?**

- Çox dəqiq qeyd etdiniz ki, söhbət Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədlərinin bərpasından gedir. Yəni, Azərbaycan tərəfi öz təbii haqqı olan hüququnu bərpa etməyə çalışır və bu istiqamətdə də intensiv iş gedir. Ermənistan isə nə qədər qışqırır qışqırsın, zatən onların səs-küyü heç nəyi həll edə və ya dəyişə bilməz. Azərbaycan öz sərhəd hüdudlarını müəyyənləşdirməkdə tam səlahiyyət sahibidir və bu səlahiyyətləri həm Beynəlxalq Hüquq tanıyır, həm də Beynəlxalq Konvensiyalar.

**- Sərhədlərin delimitasiyasında Azərbaycan konkret faktlar, sübutlar təqdim etdiyi halda Ermənistan ancaq hay-küyə, əsassız çığır-bağıra üstünlük verir. Sizcə, Ermənistan bununla nə etmək niyyətindədir?**

- Azərbaycan hər zaman fakt və sübutla danışıb, indi də belədir. Ermənistan isə hər zaman bunun əksini edib, hər zaman hər şeyi saxtalaşdırıb və indi də öz "ənənəsinə" sadiqdir. Bir daha deyirəm: Azərbaycan tərəfi öz halal haqqı olan sərhəd hüdudlarına iddia edir. Həmin sərhədlər beynəlxalq səviyyədə tanınıb və dəyərli sərhədçilərimiz haqqımız olan bir qarış torpağı, məsafəni belə kimsəyə güzəştə getməyəcəklər.

**- Paşinyan "Zəngəzur dəhlizi"nin açılması məsələsinin heç zaman müzakirə mövzusu olunmadığını bildirib. Bununla Ermənistan hakimiyyəti 10 noyabr razılaşmasının müddalarını pozmur ki?**

- Paşinyan ilk öncə gedib 10 noyabr razılaşmasının bəndlərini oxusun. Amma yaxşı-yaxşı oxusun. Bax onda anlayacaq ki, hər zaman olduğu kimi yenə də məntiqsiz və rabitəsiz danışır. Əlbəttə ki, "Zəngəzur dəhlizi" məsələsi lap öncədən müzakirə predmeti olub və həmin dəhliz mütləq açılacaq. Azərbaycan Prezidenti cənab İlham Əliyev də məlum məsələ ilə bağlı öz prinsipial və qəti mövqeyini ifadə edib. Bir qalıb həmin dəhlizin açılması. Yəni, Paşinyanın sərsəmləmələrinə çox fikir verməli lazım deyil. Faktları, olanları, reallıqları danmaq zatən ermənilərin adətidir və onların mənfur, naqis xisləti ilə bağlı məsələdir.

**- Ermənistan "Zəngəzur dəhlizi"nin açılmasına qarşı çıxdığı halda Azərbaycanda "Laçın dəhlizi"ni bağlaya bilərmi?**

- "Zəngəzur dəhlizi" açılacaq və açılacağına görə də, başqa variantlara, alternativlərə ehtiyac qalmayacaq. Buna əmin olun.

**- ABŞ prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Prezident İlham Əliyevə Zəngəzurla bağlı zəng etdiyi bildirilir. Qarabağın işğal edildiyi zaman ABŞ və Fransa susduğu halda, indi Azərbaycanın haqlı mövqeyini sərhədlərini müəyyənləşdirməklə həyata keçirdiyi halda niyə bu dövlətlər narahat olurlar?**

- ABŞ-ın da, Fransanın da, digər dövlətlərin də müharibə zamanı mövqeyini hamı görüb. Yəni, bu proses bizə dostlarımızı da tanıdıb, düşmənlərimizi də, neytralları da. Amma çox doğru deyirsiniz ki, əsas mövqe məhz Qarabağ işğal altında olan zaman sərgilənməli idi. O zaman Ermənistan qınanmalı idi, küncə sıxılmalı idi, BMT-nin qətnamələrinin icrası həmin dövlətlər tərəfindən tələb olunmalı idi. Amma oldumu? Xeyr, olmadı. Azərbaycan BMT-nin həmin qətnamələrini məhz özü icra etdi, torpaqlarını işğaldan özü azad etdi, öz gücünə qələbəyə nail oldu. Bundan sonra da bütün məsələlərlə bağlı qərarları Azərbaycan özü verəcək.

***Gülyana***

## ABŞ Dövlət Departamenti amerikalıları Ermənistana səyahət etməməyə çağırıb




ABŞ Dövlət Departamenti amerikalılara Ermənistana səyahət etmələri barədə xəbərdarlıq edib: departament indi bölgədə təhlükə ola biləcəyini göstərir. SİA xəbər verir ki, bu barədə Dövlət Departamentinin saytında bildirilir. Departament bu ölkədə koronavirusa yoluxma riskinin yüksək olduğunu göstərir. Bundan əlavə, amerikalılardan konkret bölgələrə, xüsusən də Dağlıq Qarabağa səyahət etməmələri istənilib. "ABŞ hökuməti bölgəyə giriş məhdud olduğu üçün Dağlıq Qarabağ və ətrafındakı Amerika vətəndaşlarına təcili yardım xidmətləri göstərə bilməz"- deyə qeyd olunub.

***Elçin***

## Həkimdən açıqlama: "Açıq havada maska taxmağın mənası yoxdur"



"Açıq havada maska taxmaq ilk vaxtdan bəri müzakirə olunan məsələlərdəndir". Bunu SİA-ya açıqlamasında həkim professor Adil Qeybulla deyib. Professor bildirib ki, ikinci dalğadan sonra karantin sərtləşdirilən zaman Operativ Qərargah tərəfindən qərar qəbul olundu ki, açıq havada maska taxmaq məcburidir: "Bu məsələ də uyğunsuzluq ondan ibarətdir ki, yumşaldılmalara gedildəndən sonra qapalı mühitdə, iaşə müəssisələrində, restoranlarda, kafelərdə, çay evlərində maskasız oturmaq qadağan edildi. Lakin çölə çıxan zaman maska geyinməyin tələb olunması absurddur. Bu, Operativ Qərargahın verdiyi qərarlar içində bir-birinə uyğun gəlməyən hissələrdir. Bunu mütləq korrektə etmək lazımdır.

Şuşada keçirilən "Xarı bülbül" festivalı zamanı Prezident İlham Əliyev festivala daxil olarkən qonaqlardan maskaları çıxarmaqlarını istədi. Prezident dəfələrlə açıq havada maska taxmağı düzgün hesab etmədiyini bildirib. Prezident bu fikirdə tam haqlıdır. Yumşaldılmalardan sonra açıq havada maska taxmağın mənası yoxdur. Epidomiploji vəziyyət xeyli stabilləşib və vəziyyət nəzarət altındadır. Açıq havada maska taxmaq praktikasını əlbəttə ləğv edə bilərik, amma sadəcə, bir şeyi qeyd etmək istərdim ki, hələ pandemiya bitməyib və davam etməkdədir. Bu baxımdan tam rahat və arxayın olmaq düzgün deyil. Hindistan ştamı və mutasiya məsələləri hələ də var. Əgər 4-cü dalğa olarsa, virus yenidən yayılarsa vəziyyət daha da ciddiləşəcək.

Qeyd edim ki, Hindistanda yayılan növ immun sistemindən yayına bilən bir ştamdır. Ona görə düşünürəm ki, ehtiyatı əldən verməməliyik. Dünya Səhiyyə Təşkilatı pandemiyanın bitdiyi günü elan edənə qədər karantin davranışlarına əməl etmək əsas şərtdir".

***Qönçə Quliyeva***

# Türkiyə şəhidlərinin qisasını aldı



"Türkiyə şəhidlərinin qisasını alması ilə bağlı videokadr yayımlayıb və burada Türkiyənin uğurlu əməliyyatının görüntüləri sosial şəbəkə istifadəçilərinin diqqətinə çatdırılıb. PKK terror təşkilatının Suriya qanadının lideri Sofi Nurettin adı altından gizlənən Halef El-Muhammedin məhv edildiyi anın görüntüləri Türkiyənin Müdafiə Nazirliyi yayıb. Qeyd etmək lazımdır ki, Türkiyə Silahlı Qüvvələri son illərdə hərbi əməliyyatlar keçirib. Burada "Sülh Çeşməsi", "Fərat Qalxanı", "Zeytun Budağı" hərbi əməliyyatlarından sonra PKK terrorçularının toplaşdığı yuvaların darmadağın edilməsi istiqamətində aparılan "Pəncə İldırım" və "Pəncə Şimşək" hərbi əməliyyatları çox yaxşı nəticələr verir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov deyib.

Ekspertin sözlərinə görə, Türkiyənin xüsusi təyinatlıları və mehmetçikləri dünya hərb tarixində uğurlu əməliyyatlarla yadda qalıblar: "Hazırda da PKK liderinin məhv edilməsi Türkiyənin şəhidlərinin qisasını alması deməkdir. Bu uğurlu əməliyyatlar münasibətilə Türkiyənin Müdafiə Nazirliyini, eləcə də Türkiyə xalqını təbrik etmək bizim üzərimizə düşür. Çünki Türkiyə 44 günlük Vətən müharibəsi dövründə - Azərbaycanın haqq savaşında siyasi və mənəvi cəhətdən yardımcı oldu. Bu dəstək Azərbaycanın gücünə güc qatdı. Türkiyənin hər bir uğuru bizim öz uğurumuz kimi qiymətləndirilir. Hərb meydanında da, Türkiyənin apardığı haqq savaşında da Azərbaycan Türkiyənin yanındadır. Bu bizim qardaşlıq, dostluq borcumuzdur. Eyni zamanda qeyd etmək lazımdır ki, PKK terror yuvalarından biri kimi Ermənistanın işğal etdiyi Qarabağ ərazisində olub. Vətən Müharibəsi dövründə Azərbaycanın xüsusi xidmət orqanlarının yaydığı səs yazılarında PKK terrorçularının burada olması ilə əlaqədar faktlar və dünyanın digər bölgələrindən PKK terrorçularının Qarabağa gəlmək niyyətləri açıq şəkildə üzə çıxıb".

İ.Hüseynov vurğulayıb ki, bütün bunlar onu deməyə əsas verir ki, PKK-nın bir qanadı da Qarabağda fəaliyyət göstərirdi və Azərbaycanın suverenliyinə, təhlükəsizliyinə böyük təhdid törədirdi: "Bu istiqamətdə də Azərbaycan ordusu Qarabağda olan PKK yuvasının darmadağın edilməsində fəal iştirak etdi. Bundan sonra da Azərbaycan ilə Türkiyə çiyin-çiyinə dünyada anti-terror əməliyyatlarında iştirak edəcək. Azərbaycan sülhməramlıları da Türkiyə Silahlı qüvvələrinin yaxından köməkliyi ilə dünyanın ən qaynar bölgələrində sülhməramlı əməliyyatlarda iştirak edirlər. Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları mütəmadi olaraq Türkiyənin hərbi məktəblərində müvafiq seminarlar keçirlər. Bu da Azərbaycan zabitlərinin peşəkarlığının artırılmasında, müasir silahların tətbiqi istiqamətində yeni biliklər əldə etməsində və silahların mənimsənilməsində mühüm əhəmiyyət kəsb edir. Türkiyənin dünya arenasında qazandığı hər bir uğur Azərbaycanın uğurudur və Türkiyənin uğurlarının davamlı olması Azərbaycanı da qürurlandırır və bizi daha da güclü edir".

***Aysel Məmmədova***

## Armen Aşotyan: "Ermənistan biabırçı, rüsvayçı vəziyyətdədir"



Ölkə utancverici, rüsvayçı, rəzil bir vəziyyətdədir, ancaq xainin biri Ermənistanda fövqəladə seçkilər tətbiq edib və bu məsələdə də birləşmiş müxalifətin günahı var. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan özünün "Facebook" səhifəsində yazıb.

Aşotyan ölkə vətəndaşlarını, elementar normanı, ədəbi və şərəfi də olsa qorumağa çağırıb. "Bu gün mənim xəbərdarlıq etdiyim şeylər baş verir. Bu vəziyyətdə Ermənistanda seçki keçirmək mümkün deyildi. Hazırki baş nazirliyin dövründə seçkilərə getmək mümkün deyildi. Təəssüf ki, bizim olanımız elə bundan ibarətdir. Ən vacib sual odur ki, ölkənin son məhvindən əvvəl kapitulyatoru atmağa vaxtımız olacaq, yoxsa yox? Hörmətli insanlar, bu vəziyyətdə ən azından elementar bir normanı, ədəbi və şərəfi də olsa qoruyaq. Seçki bəhanəsi ilə birlikdə getdiyimiz yoldan sonra bizi yenidən parçalamağa çalışırlar", deyə partiyanın sədr müavini Aşotyan bildirib. Daha sonra o insanlara seçkilərdə fəal iştirak etməyə çağırışı edib.

"Unutmayın ki, bir neçə il və ya ay əvvəl bütün həqiqi müxalifətçilərlə bir yerdə idik. Əsas ləyaqət həddini aşmayın. Təəssüf ki, müxalifət və ya başqa hansısa bir qüvvə təkbaşına seçkidə qazana bilməz. Yenidən birlik olmaq üçün yer saxlayıb. 20 iyundan sonra 21 iyun və digər bir çox günlər olacaq. Bugünkü fırıldaqçılar kobud, təzə qırışlar və acı bir iz buraxa bilərlər. Əsas hədəfimizi unutmayın ki, o da Nikolsuz Ermənistandır, ya da Nikoldan sonrakı Ermənistan!", deyə müxalifətçi sözünü tamamlayıb.

Xatırladaq ki, Ermənistan tərəfinin təxribatlarının nəticəsində başlayan və 44 gün davam edən müharibə işğalçı ölkənin biabırçı məğlubiyyəti, 10 noyabr tarixində Nikol Paşinyanın kapitulyasiya, təslim sənədini imzalaması ilə nəticələnib və ölkə vətəndaşları bunun müqabilində onun istefası tələbi ilə mütəmadi olaraq etiraz aksiyaları, mitinqlər təşkil ediblər. Vəziyyətdən çıxmaq üçün Paşinyan növbədənkənar seçki keçirmək qərarı ilə erməni cəmiyyətini sakitləşdirməyə çalışıb. İndi Ermənistan vətəndaşları 20 iyun tarixində seçkilərdə iştirak etməli öz seçimini etməlidirlər, amma bir çox siyasətçilər hələ də bu seçkilərin yersiz olduğu qənaətindədirlər və birmənalı olaraq Nikol Paşinyanı tarixin zibilliyinə atmaq niyyətlərini gizlətmirlər. Hər bir halda seçkilərdə daha böyük mübahisələrin, qarşıdurmaların, toqquşmaların, hətta vətəndaş müharibəsinin belə olma ehtimalı danılmazdır.

***İnam Hacıyev***

# Yeni düzən: konsept

## Türkiyənin yeni güc mərkəzinə çevrilməsini, Azərbaycanın güclənməsini qəbul etməyən və özünün super güc "səlahiyyət



***Bəşəriyyəti uzun illər narahat edən əsas məsələlərdən biri üçüncü dünya müharibəsinin başlaması təhlükəsidir. Bununla bağlı zaman-zaman müxtəlif versiyalar irəli sürülmüşdü və əslində bir neçə dəfə dünya sivilizasiyanı məhv edə biləcək belə bir müharibənin astanasında olub. Və üçüncü dünya müharibəsinin əsas ssenarisi kimi adətən, məhz nüvə silahlarından istifadə etməklə savaş aparmaq nəzərdə tutulurdu. Və hesab olunurdu ki, artıq 21-ci əsrdə adi silahlardan istifadə etməklə hər hansı bir müharibədə qalib gəlmək mümkün deyil...***

Azərbaycan Liderinin - Prezident İlham Əlievin qətiyyətli qərarları bütün bu fikirləri alt üst etdi. İlham Əliyev bütün dünyaya sübut etdi ki, ölkənin maraqları hər şeydən üstündür və ədalətin bərqərar olunması üçün heç kimin hər hansı icazəsi tələb olunmur. Əlbəttə ki, Qarabağda zəfərlə başa çatdırılan 44 günlük son müharibə və onun nəticələri ABŞ başda olmaqla dünyada özlərini söz sahibi hiss edən ölkələri sözün əsl mənasında dəhşətli dərəcədə heyrətləndirdi, şoka saldı. Hətta bu gün də onların davranışlarından, baxış prizmalarından çox rahatlıqla sezmək mümkündür ki, onlar hələ də ayıla bilməyiblər və həmin ölkələr Qarabağ müharibəsinin nəticələrinin onların yaratdıqları dünya düzəninə təhlükə kimi görürlər. Bu ölkələr, Qarabağ müharibəsində ərazi baxımından kiçik, lakin iradə baxımından nəhəng olan Azərbaycanın onlar tərəfindən hərtərəfli dəstəklənən Ermənistanı məhv etməsini artıq mümkün üçüncü dünya müharibəsinin lokal versiyası kimi görür, və "asılı" hesab etdikləri Azərbaycanın bu dərəcədə qələbə çaldığı halda, digər, yəni ərazı, maliyyə, və əhali baxımından daha böyük ölkələrin bu ölkələri tam məhv edə biləcəyini düşünərək təcili olaraq xarici siyasətlərində dəyişikliklərə başlayıblar.

### Qarabağ müharibəsi üçüncü dünya müharibəsinin mümkün modeli kimi

Qarabağ müharibəsini üçüncü dünya müharibəsinin modeli kimi qəbul edən ABŞ beynəlxalq siyasətini aqressivləşdirir. Qarabağ müharibəsinin dünya müharibəsi modeli kimi qəbul edilməsində həqiqətən də müəyyən əsaslar mövcuddur:

- Hərbi və siyasi bloklarda birləşmiş ölkələrin sıravi üzviləri arasında hərbi münaqişə;
- Münaqişəni dəstəkləyən nəhəng ölkələr: Azərbaycanı- Rusiya, Türkiyə, İran, Pakistan, İsrail Ermənistanı-ABŞ, Fransa, Kanada, Hindistan, Suriya;
- Hibrid müharibənin aparılması;
- Nüvə silahından başqa demək olar ki, bütün növ silahlardan istifadə.

Yeganə baş verməyən hələ ki, müharibənin nəticələrini əks etdirən yekun konfrans: Birinci dünya müharibəsindən sonra- Paris konfransı, İkinci dünya müharibəsindən sonra Potsdam konfransı. Lakin Qarabağ müharibəsindən sonra hələ sülh konfransı haqqında danışan belə yoxdur, halbuki ölkə lideri Azərbaycanın bu danışıqlara hazır olduğunu bəyan edib. Deməli, Ermənistanı dəstəkləyən "güc bloku"na daxil olan ölkələr müharibənin nəticələrini qəbul etmir və bu nəticələri dəyişmək niyyətindədirlər. Şübhəsiz ki Azərbaycan və onu dəstəkləyən hərbi-siyasi blok bu gedişə hazır olmalıdır. Əks blokun Azərbaycana bütün təsir imkanları neytrallaşmalıdır. Ölkə daxilindəki ABŞ, Fransa, Kanada və digərləri ilə bağlı bütün siyasi, ictimai, qeyri-hökumət qurumları dərhal ölkədən çıxarılmalıdır. Məsələn, Azərbaycanın regionların Amerika mərkəzləri mövcuddur.

Və yaxud ABŞ-a məxsus QHT-lər artıq azad olunmuş ərazilərdə belə işləməyə cəhd göstərirlər. Buna isə qətiyyən yol vermək olmaz. Ölkəmiz Ermənistan blokuna daxil olan ölkələri yalnız yekun sülh sazişi imzalandıqdan sonra buraxa bilər.

### Putin dövründə ABŞ bir dənə də olsun qlobal və yaxud regional məsələdə qalib gələ bilmir

Son illər baş verən proseslər dünyada yeni siyasi düzən formalaşmasına təkan verdi. Bu əsasən Rusiyada Vladimir Putinin hakimiyyətə gəlməsi ilə başladı. Belə ki, məhz Putin Rusiyası əvvəlki Rusiyanın itirdiyi bütün əvvəlki siyasi, hərbi və hətta ərazi mövqelərini qaytarmağa başladı. Ən yeni tarixə diqqət yetirsək, Putin dövründə ABŞ bir dənə də olsun qlobal və yaxud regional məsələdə qalib gələ bilmir, və əksinə ardıcıl olaraq itirir. Venesuela, Suriya, Əfqanistan, Ukrayna, Gürcüstan, Ermənistan...

ABŞ-ın son və barışmaq istəmədiyi məğlubiyyət isə Putinin dəstəklədiyi Azərbaycanın Qarabağdakı qalibiyyətidir.

### Sorosun siyasətə qoşulmağının ABŞ üçün acı nəticələri

Eyni zamanda, dünyada yeni düzən formalaşdırmağa çalışan yalançı demokrat, yaxud fırıldaqçı Soros hələ 80-ci illərin sonundan siyasətə fəal qoşularaq onlarla fondlar, QHT-lər və digər qurumlar yaratmaqla birbaşa Şərqə qarşı hücuma başladı. Öz qurumlarına siyasi dəstəyi göstərməkdən ötrü isə o 2003-cü ildən ABŞ da siyasi proseslərə müdaxilə etməyə başlayır və açıq şəkildə demokratları dəstəkləyir. Nəhayət, 2008-ci ildə Soros öz məqsədinə çatır və Barak Obamanı ABŞ prezidenti təyin edir, bəli, məhz təyin edir! Çünki bu məsələdə sadə amerikalı seçicidən daha çox onun milyardarı rol oynayıb. Əbəs deyil ki, Soros məhz Obamanın vasitəsi ilə dərhal dünyada öz dağıdıcı ideyalarını yürütməyə başlayır. O da sirr deyil ki, Obama hakimiyyəti dövrü dünyada ən dağıdıcı hadisələrlə yadda qaldı: Ukrayna, İŞİD-in baş qaldırması, Ərəb baharı, Suriyada müharibənin başlaması və sair.

Sorosun hücum dairəsinə şübhəsiz Azərbaycan da daxil idi və o buraya çoxsaylı fondlar QHT-lər göndərməyə başladı və onların əksəriyyətini demokratların hakimiyyətə gəlməsi ilə nəzarətə keçən USAİD vasitəsi ilə maliyyələşdirməyə başladı (biz bu haqda yazmışdıq https://sia.az/az/news/politics/856893.html ).

Nəticədə Obamanın iki prezidentlik müddətindən sonra Sorosun planına görə növbəti prezident məhz Hillari Klinton olmalı idi. Hər şey də buna doğru yönəlmişdi. Sorosun Hillari Klinton üzərində nə qədər "haqqı" olduğunu isə bizim öncə paylaşdığımız bir yazı aydın şəkildə göstərir (bax https://sia.az/az/news-/politics/870695.html ).

Məsələn, həmin yazıda Soros dövlət katibi olan Klintona rəsmi müraciət forması olan "Xanım Dövlət Katibi" əvəzinə sadəcə "əziz Hillari" kimi müraciət edir (?!).

Lakin Soros xırda səfhə yol verir. Məsələ burasındadır ki, Soros Hillari Klintona olan real dəstəyi əslində olduğundan daha çox proqnozlaşdırmışdı və bu səbəbdən özünün nəzarətində olan, eləcə də Serbiyada yerləşən "Dominion Səsvermə Sistemləri Korporasiyası" ABŞ-da prezident seçkilərin hesablanması zamanı "mümkün xətanı" səhvən Hillari Klintonun qalib gəlməsi üçün tələb olunduğundan az müəyyən etmişdi.

Donald Tramp isə həqiqətən orta statistik amerikalıların səsini qazanmaqla gözlənildiyindən daha çox səs toplayaraq, Sorosun "Dominiona" tapşırığı olan xəta limitini aşaraq qalib gəldi. Şübhəsiz ki, bu Soros üçün şok yaratdı və məğlubiyyətlə barışmaq istəməyən Corc, dərhal Trampa qarşı müxtəlif əsassız ittihamlarla çoxsaylı məhkəmələrə start verdi. Ümumiyyətlə, Trampın demək olar ki, bütün prezidentliyi dövründə Soros onun fəaliyyətlərini əngəlləməyə çalışırdı və hətta bir neçə dəfə impiçment cəhdlərinə əl atdı. Və nəhayət - 2020-ci il seçkilərində "Dominionun" vasitəsi ilə Trampı "vurdu", demensiya xəstəliyindən ciddi əziyyət çəkən Baydeni taxta gətirərək onu ətrafında özünün Hilari Klinton üçün hazırladığı adamlarını yerləşdirdi ki, onlar da Baydeni idarə edə bilsinlər.

Bir sözlə, Soros siyasətə aktiv qoşulandan ABŞ-siyasəti tarazlaşmış dünya siyasətini yürüdən peşəkarlardan keçdi sırf öz maraqlarına xidmət edən bir qrup qeyri-peşəkarların əlinə və bu qrup şəxslərin yürütdükləri acgöz və qapıcı siyasətin nəticələri artıq göz qabağındadır: ABŞ özünün supergüc rolunu itirir, özü də bütün dünyanın gözü qarşısında!

### Türkiyə mərhələli şəkildə ABŞ-ın müəyyən supergüc "səlahiyyətlərini" əlindən alır

Yaxın Şərq dünya tarixində qlobal siyasətin formalaşmasında həmişə ən əhəmiyyətli rol oynayıb. Ən azından, dünyanın əsas üç dini məhz bu regionda yaranıb və birinci minilliyin sonlarından başlayaraq dünya siyasətinin formalaşmasında türklər əhəmiyyətli rol oynayıblar. Yaratdıqları dövlətlərdən asılı olmayaraq onlar daimi böyük güc və müdrik si-

# tual təhlil

## lərini" itirməkdə olan ABŞ xarici siyasətini aqressivləşdirir

yasətə nail olmaqla dünya tarixində baş verən bütün əhəmiyyətli proseslərə fəal cəlb olunublar. Məsələn, Birinci dünya müharibəsində Türkiyənin rolu son dərəcə əhəmiyyətli olub və yürüdülən siyasət nəticəsində Avropa ilə Asiyanı birləşdirən dəhliz nəzarətdə saxlanılıb. Yaxud, İkinci dünya müharibəsi zamanı Türkiyə daha ölçülmüş siyasət yürüdərək, müharibəyə hər hansı bir tərəfdən qoşulmaqdan son ana qədər yayınır.

İyirminci əsrin 60-cı illərdəki "Karib böhranı" zamanı yenə də Türkiyə gündəmi gəlir və sonda onun ərazisində yerləşən raketlər "köhnəlmiş" adı ilə ölkədən çıxarılır. Bir sözlə, Türkiyə güc olaraq daim dünya siyasətinin önündə olub və artıq türklərin və yaxud Türkiyənin dünya liderliyinin qalxmalarına tam zəmin yaranıb. Türklərin güclü dövləti, güclü diplomatiyası, və şübhəsiz ki Ərdoğan kimi lider bunu labüd edir. Artıq göründüyü kimi, dünya da Türkiyənin supergücə çevrilməsini görür, dəstəkləyir, və qəbul edir. Necə deyərlər, XXI əsr Türk Əsridir!

### Türkiyənin artıq formalaşmaqda olan supergüc olmasına dəlalət edən faktorlar hansılardır?

- Cəsarətli siyasətin aparılması. Türkiyə çəkinmədən öz maraqlarını ortaya qoyur və onların müdafiəsi istiqamətində bütün zəruri addımları atır.

- Liviya, Suriya, Kipr, Azərbaycan və digər yerlərdə Türkiyə onun siyasətin zidd siyasət yürüdən qüvvələri tam şəkildə geri otuzdurdu.

- Türkiyəni güclü dövlət görərək bir çox ölkələr onun ətrafında birləşməyə cəhd edir, onunla müttəfiq olmağa çalışırlar.

- Rusiya, Çin və İran -Türkiyənin yeni rolunu görür, bəyənir və dəstəkləyir. Bu nəhəng ölkələr cəsarətli və etibarlı siyasət yürüdən dövlətlə tərəfdaşlığa daha çox üstünlük verirlər və azmış, eləcə də bu səbəbdən hiddətlənmiş ABŞ-ın dünya idarəedicisi rolunu öz siyasətləri ilə artıq tam şübhə altına alırlar.

- Türkiyənin artan nüfuzunun göstəricisi olaraq Ukraynada vəziyyət pisləşən kimi Zelenskinin Ərdoğanın yanına gedərək dəstək istəməsini gətirmək olar. Yeri gəlmişkən, Türkiyənin artan rolundan qorxan Soros dərhal bundan sora Blinkeni Ukraynaya göndərmişdi...

### ABŞ sayağı "suqsvanq"

Supergüc rolunu itirilməsi prosesinin qarşısını ala bilməyən ABŞ özünü "suqsvanq" vəsiyyətinə salıb, yəni hər atdığı növbəti addımla özünün dünya siyasətindəki yerini daha da mürəkkəbləşdirir və nüfuzunu itirir və bunun əvəzini heç bir cəsarət tələb etməyən, belə desək qurşaqdan aşağı zərbələr endirməklə kompensasiya etməyə çalışır. Məsələn heç bir əsas olmadan, heç bir izahat verilmədən Putin "qatil" adlandırılır. Yaxud, Türkiyəyə qarşı "genosid" hoqqası işə salınır. Özü də bunu etmədən əvvəl Bayden Ərdoğana zəng edib bunu etməyə məcbur olduğunu deyir. İsrail Fələstin münaqişəsini sülh yolu ilə həll etməkdə köməklik etmək əvəzinə münaqişə tərəflərinə silah satışını artırır. Lakin gəlin görək əks tərəfin bu cılız hərəkətlərə reaksiyası necə oldu?

Putin Baydenə "can sağlığı" arzulayaraq faktiki olaraq onu "xəstə" adlandırdı. Ərdoğan isə yüksək təmkinlə bu hərəkətin nə qədər ucuz hərəkət olduğunu göstərdi. Yəni faktiki olaraq "genosid" məsələsində ABŞ və Türkiyə yerlərini dəyişdilər. ABŞ "it" oldu, Türkiyə isə "karvan". Amma şübhəsiz ki, ABŞ-ın bu hərəkəti cavabsız qalmayacaq və Türkiyə onun cavabını artıq supergüc olaraq verəcəkdir. Burada biz Qarabağ müharibəsi zamanı Böyük Britaniyanın da mövqeyini qeyd etməliyik. Yəni, adətən ABŞ və onun tör-töküntüsünü dəstəkləyən Britaniya bu müharibədə Türkiyəni və onun müttəfiqi olan Azərbaycanı dəstəklədi, bu faktın özü Türkiyənin ABŞ-ı ardıcıl olaraq əvəzlədiyinə dəlalət edir.

### ABŞ-da hərbi çevriliş təhlükəsi varmı?

Şübhəsiz ki Sorosun öz iştahasını ödəmək məqsədilə dünyanı nəzarətə götürülməsi naminə ABŞ-ın uzun illər formalaşdığı supergüc mövqeyini qurban verməsi ABŞ daxilində ciddi narazılıqlara səbəb olub. Məsələn, öz komandasını hakimiyyətə gətirmək naminə 2020-ci ildəki prezident seçkilərinin açıq aydın saxtlaşdırılması əhali arasında əsl qəzəb yaratdı və bu qəzəb ABŞ tarixində ilk dəfə olaraq Kapitoliyaya hücum və altı nəfərin ölümü ilə nəticələndi.

Və yaxud bir neçə gün öncə 120-dən çox ABŞ-ın ehtiyatda olan ali rütbəli zabitləri açıq bəyanat yayaraq ölkənin ağır durumda olduğunu etiraf etdilər. Bu gedişatla əslində marionet olan Bayden administrasiyasından narazılıq ABŞ-da hərbi çevrilişlə də nəticələnə bilər və bu ssenarini dəyişmək üçün Soros - Bayden administrasiyası mütləq hər hansı xırda da olsa lokal geosiyasi mübarizədə qələbə qazanmalıdır.

### ABŞ-ın "intiqamının" Azərbaycan üçün təhlükəsi varmı?

Aydın məsələdir ki, Soros məğlubiyyətlə barışmayacaq və bütün resurslardan istifadə edərək cavab cəza addımı atmağa çalışacaq. "Cəza" tədbirinin hədəfi isə ABŞ-ın supergüc ölkə mövqeyini özlərinin hərəkətləri ilə sarsıdan Rusiya və Türkiyədir. Onların da birgə "cəzalandırılmalı" olan yeganə məsələləri əlbəttə ki, Qarabağ faktorudur və "qurbanlıq" ölkə kimi məhz Azərbaycan seçilmişdir. Və son zamanlar ABŞ-ın demək olar ki bütün Soros şəbəkəsinə daxil rəsmilərinin Azərbaycana ardıcıl olaraq təzyiq etmək cəhdləri kəşfiyyat xarakteri daşıyır ki, vəziyyəti öyrənib növbəti addımlarını planlaşdırsınlar.

### Soros Azərbaycana niyə nifrət edir?

Üstəlik unutmayaq ki, Soros Azərbaycana nifrət edir və bunun bir çox səbəbləri var. Məsələn, Soros 2003-cü ildə Azərbaycana ilk səfəri zamanı yaxından tanış olduğu Fərhad Əliyevi, eləcə də digər şəxsləri Azərbaycanda hakimiyyəti ələ almağa hazırlamağa başlayır və bu niyyəti iflasa uğrayır. Sonralar Soros Azərbaycana özünün yaratdığı bir çox fondları və təşkilatları USAİD vasitəsi ilə yerləşdirməyə başlayır. Amma onların da əksəriyyəti 2014-cü ildə ölkədən çıxarılır. Lakin bəzi qüvvələrin dəstəyi ilə USAİD də başda olmaqla bir sıra Sorosa məxsus təşkilatlar hələ də ölkədə fəaliyyətlərinin davam etdirirlər. Azərbaycanın Sorosun hakimiyyətə gətirdiyi Paşinyana qalib gəlməsi isə Sorosu ümumiyyətlə özündən çıxarıb.

### Azərbaycan daha yeni və daha potensiallı gücə çevrilir, Sorosu isə hətta İsraildə təhlükə mənbəyi hesab edirlər!

Sorosu ən çox qıcıqlandıran məsələ isə Azərbaycanın sürətli templə güclənməsi, inkişafı, müstəqilləşməsi, və hətta dünya miqyasında söz sahibinə çevrilməsidir. Yəni Azərbaycanın bu yolla getməsi heç bir halda Sorosun və yaxud ABŞ-ın planlarına daxil deyil. Öz xalqına yaratdığı şəraitə görə, müdafiə gücünü artırılmasına görə, özünü müdafiə sahəsində bütün düşmənlərə və onların havadarlarına qalib gəlməsinə görə, hərtərəfli iqtisadi inkişaf siyasətinə görə, ölkənin idarəetməsində şəffaflıq prinsiplərini və yeni peşəkar kadrların cəlb olunmasına görə Azərbaycan artıq bir çox aparıcı ölkələrin uğurlarına çatmışdır. Soros isə xüsusilə postsovet məkanındkı belə ölkələri, əsasən də müsəlman və türkdilli Azərbaycanı həzm edə bilmir. Təsəvvür edin ki, milliyyətə yəhudi olan Sorosu İsraildə belə "təhlükə mənbəyi" adlandırıllar. Yəqin bu faktın özü bu Sorosun dünya üçün nə dərəcədə ziyanverici olduğunu göstərir. Yəni öz tarixi vətəninə nifrət edib problemlər yaradan birindən digər ölkələrə münasibətdə yaxşı nə addım atacağını gözləmək olar?

### Azərbaycana qarşı təzyiqlərin artırılması hansı formalar ala bilər?

Bir sözlə, Sorosun Azərbaycanın məhv etmək arzuları puç olduğundan o ölkəmizə qarşı yeni təzyiq, hətta hücum hazırlayır və bu hücumun elementləri artıq göz qabağındadır. Hücum həm xaricdən həm də daxildən həyata keçirilə bilər. Xaricdən hücumun əsas hədəfi qondarma "DQR" statusu məsələsinin alver subyektinə çevrilməsidir. Bu alverə həmçinin ABŞ-ın hazırda əsas tərəf müqabilinə çevrilən Fransa və Kanada cəlb olunacaqlar. Lakin Azərbaycanın qonşu ölkələrindəki bir sıra ermənipərəst dairələri də Azərbaycana qarşı təxribatlara cəlb edilməsini də istisna etmək olmaz. Yəni burda söhbət Gürcüstan və İrandan gedə bilər. Və maraqlıdır ki, biz artıq bu qonşularla bağlı bəzi problemlərin şahidi oluruq. Məsələn Gürcüstandakı Dmanisi hadisələri və yaxud İranla sərhəddə təxribat nəticəsində iki sərhədçimizin şəhid olması. Üstəlik, dünənki Mödjtaba Zonnurun Zəngəzurla bağlı əsassız bəyanatı. Maraqlısı odur ki, Zonnurun bu bəyanatı məhz ABŞ-ın İrana qarşı sanksiyaların yumşaldılması mümkünlüyü barədə verdiyi bəyanatdan sonra verildi. Yəqin burda yerinə düşən bir faktı da xatırlatmaq olar İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif vaxtı ilə İranın Soros fondları ilə əməkdaşlıq etməsi faktlarını təsdiqləmişdi.

Bundan əlavə və şübhəsiz ki, Soros Azərbaycana qarşı həmçinin "hibrid müharibənin" bütün elementlərindən istifadə edəcəkdir. Yəni Azərbaycana qarşı müharibə açıq hərbi təcavüz etmədən, ancaq gizli əməliyyatlar, təxribatlar, kiberhücumlar kombinasiyasından istifadə edərək ölkəmizdə fəaliyyət göstərən özlərini radikal müxalifət dalandıran antimilli qüvvələrə dəstək verməklə aparılacaqdır. Gizli əməliyyatların əsas aparıcı qüvvəsi isə mütləq halda öncədən hədəf ölkəyə "yerləşdirilən" ABŞ-a məxsus təsisatlar olacaqdır.

Və nəhayət, ölkə daxilində təxribatçı qüvvələrin fəaliyyətini əlaqələndirmək üçün "qüvvələr" yeşləşdirilir, yerli "dayaq" nöqtələri şəbəkəsi formalaşır. Bu məqsədlə ABŞ birbaşa səfirlik və yaxud əlavə təsir mexanizmi olan USAİD vasitəsi ilə müxtəlif dairələrə qrantlar ayrılır və onlar mütəmadi olaraq ABŞ-a göndərilirlər və orada əlavə beyinyuma əməliyyatından keçirilirlər. Ən əsası isə Azərbaycana yenə də USAİD-in vasitəsi ilə Sorosa məxsus ABŞ QHT-ləri yerləşdirilir və onlar birbaşa "aidiyyəti" üzrə məlumatları toplayıb və Sorosa göndərirlər. Bunu təsdiqini yenə də yuxarıda istinad etdiyimiz Sorosun xanım Klintona göndərdiyi məktubda açıq aydın görürük. Məktubun sonunda Soros yazır: "Mənim Tiranadakı Fondum vəziyyəti yaxından monitorinq edir və lazım olarsa təhlil təqdim edə bilər".

Fikir verin, Soros açıq etiraf edir ki, onun təşkilatları təyinat ölkələrində hansı fəaliyyətlə məşğul olurlar. Biz isə dəfələrlə aidiyyəti qurumların diqqətinə çatdırmışıq ki, ölkədə hələ də Sorosa məxsus təşkilatlar fəaliyyət göstərir (bax https://sia.az/az/news/politics/866857.html ), lakin həmin təşkilatlar hələ də burdadır. Deməli onları ABŞ-ın ölkəmizdə artıq formalaşdırdığı (ələ keçirdiyi) qüvvələr dəstəkləyir və bu qüvvələri müəyyən etmək elə də çətin deyil.

Əlavə olaraq ABŞ səfirinin və USAİD-in sıx əməkdaşlıq etdikləri qurumlara diqqət yetirilsə və onların mütəmadi olaraq görüşdükləri və yaxud müxtəlif növ "əməkdaşlıq müqavilələri" imzaladıqları şəxslərə diqqət yetirsək, hər şey aydın olacaqdır. Bircə onu əminliklə deyə bilərik ki, demokratların əvvəlki hakimiyyəti dövrlərində Sosos hətta parlament seçkilərində müəyyən namizədləri dəstəkləmişdir, amma bu başqa bir yazının mövzusudur.

### Azərbaycan hansı qabaqlayıcı tədbirləri görə bilər?

Bu kimi məsələlərdə prioritet istiqamət Ermənistanla münasibətlərin rəsmiləşdirilməsidir. Daha dəqiq desək, Ermənistan ikitərəfli dövlətlərarası saziş imzalamağa məcbur olmalıdır, çünki başqa yolu da yoxdur. Bunun adı sülh, ərazi bütövlüyünün qarşılıqlı tanınması haqqında saziş də ola bilər. Həmin sənəddə ölkələrarası sərhədlərin qarşılıqlı tanınması, biri-birinin ərazisinin toxunulmazlığının tanınması və nəticə olaraq diplomatik münasibətlərin qurulması öz əksini tapa bilər. Belə bir sazişin imzalanmasının uzadılması son müharibənin nəticələrinin mütəmadi olaraq əks-düşərgə tərəfdən şübhə altına alınmasına şərait yaradacaqdır. Azərbaycan hazırda haqq etdiyi qələbəni qeyd edir, nəhəng quruculuq işləri ilə məşğul olur, amma düşmənin hansı addımlar atdığından biz tam məlumatlı ola bilmərik.

Azərbaycan müharibə və onun nəticələrinin rəsmiləşdirilməsində iştirak edən tərəflər istisna olmaqla, istənilən kənar qüvvələrin prosesə müdaxiləsinin qarşısı alınmalıdır. Məsələn ABŞ-ın telefondan sallanan və gündə Azərbaycana zəng edib "narahatlığını bildirən" nümayəndələrinə birdəfəlik deyilməlidir ki, qatar artıq getdi. Vaxtında ABŞ-a səlahiyyət və imkan verilmişdi ki, bu məsələnin həllində iştirak etsin. Etmədilər və yaxud istəmədilər. Azərbaycanı ermənilərin xeyrinə olan "status kvon"u qəbul etməyə məcbur edirdilər. İndi isə getsinlər öz işləri ilə məşğul olsunlar. Amerikada yetişən hərbi çevrilişin qarşısını alsınlar. Maraqlıdır ki, Amerikaya indi kim səlahiyyət verib ki, zəng edib Azərbaycana desin ki, sən postu orda qoyma burda qoy? ABŞ hansı mandata uyğun hərəkət edir? Bu regiona burnunu soxmağa əsas verən əlində hansı hüquqi sənəd var? Bəlkə BMT ləğv olunub və onun səlahiyyətləri verilib ABŞ-a sadəcə bizim xəbərimiz yoxdur? Əgər söhbət gorbagor olan Minsk qrupundan gedirsə, orda Rusiya da var başqa bir həyasız ölkədə də var, nəticədə istənilən bəyanat yalnız üçtərəfli formada verilə bilər.

Söz yox ki, artıq Azərbaycan dost olmayan ölkələr siyahısı hazırlamalıdır və mümkündür ki, hazırlayıb da. Həmin siyahıya daxil edilən ölkələrə qarşı zəruri tədbirlər görülməlidir, o vaxta qədər ki, bu ölkələr Azərbaycana qarşı aşkar antisimpayiya xarakterli düşmənçilik siyasətlərindən əl çəksinlər.

ABŞ və Fransaya malik bütün qeyri-hökumət təşkilatlarının Azərbaycandan dərhal çıxarılmaları da gündəmə düşə bilər. Xüsusilə USAİD-in ölkəmizdəki fəaliyyətinə heç bir ehtiyac da qalmayıb. Əgər USAİD hər hansı faydalı işlə məşğul olmaq istəsə, o bunu elə ABŞ-dan və yaxud özünün tam nəzarətindən olan Gürcüstandakı regional ofisindən də edə bilər. Onun qonşu ölkədə çoxsaylı diplomat "libasında"a sorosçuları var.

Hər bir halda biz artıq yeni dünya düzəni formalaşması ərəfəsindəyik və bizim bu yeni düzəndə hansı yer tutacağımız bizim indiki vaxtda atacağımız addımlardan asılıdır. Və inanırıq ki, bizi qələbəyə, zəfərə aparan Liderimiz və Ona sadiq olan qüvvələr, əsasən də xalq ölkə daxilindəki xainləri davamı olaraq müəyyən edib zərərsizləşdirəcək və ölkəmiz dünyanın yeni düzənində layiq olduğu yeri tutmağa davam etməklə yanaşı, həm də mövqeyini gücləndirəcəkdir.

*Aydınoğlu,*
*Rövşən RƏSULOV*

# Bakı "Formula 1" yarışlarına uğurla ev sahibliyi edir

***Artıq paytaxt Bakımızda beşinci dəfə keçiriləcək "Formula 1" Azərbaycan Qran-Prisinə sayılı günlər qalıb. İyunun 4-6-da baş tutacaq yarışın yarım əsrdən artıq tarixi var. "Formula-1" idman tarixində yeni maraqlı bir səhifədir. "Formula 1" rəhbərliyi (FOM) ilə Azərbaycan arasındakı mövcud müqaviləyə əsasən 2024-cü ilə qədər paytaxtımız bu yarışlara ev sahibliyi edəcəkdir. 1950-ci ildən etibarən hər il keçirilən "Formula-1"in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradılıb. Yarışların müvəffəqiyyətlə keçirilməsinə hazırlıq işləri davam edir.***




Bakıda keçirilən "Formula-1" Avropa Qran-Prisi yarışlarını dünyanın 200 qədər ölkəsində 500 milyondan çox azarkeş televiziya vasitəsilə izləyib. "Formula-1" üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə edib. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanalları yarışları müntəzəm yayımlayıblar. 500 milyon televiziya tamaşaçısı Avropa Qran-Prisində ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış olub, Bakı haqqında geniş məlumat əldə edə biliblər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın, Polşanın, Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan 200-ə yaxın reportaj və material hazırlayıblar. Dünya ölkələrində keçirilən "Formula 1" yarışları çərçivəsində Bakıda keçiriləni ən yaxşı yarış hesab edilir.

İnsanların televiziya vasitəsilə birbaşa izlədiyi yarışların keçirildiyi məkan şəhər halqası olduğundan, onlar təkcə avtomobilləri deyil, inkişaf etmiş Bakının gözəlliyini ətraflı görə bilirlər. "Formula-1" Azərbaycanı dünyaya tanıtmaq üçün ən yaxşı nümunə kimi dəyərləndirilir. "Formula-1" yarışı ölkəmizin təbliği baxımından, ideal imkanlar yaratmış olur. Yarışının Azərbaycan mərhələsinin özünəməxsusluğu ilə seçildiyi hər zaman xüsusi olaraq vurğulanır. Plotlar qeyri-adi ab-havası ilə seçilən, əfsanəvi tarixi yerləri əhatə edən və heç bir yerdə bənzəri olmayan trekdə yarışırlar. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trek Bakının tarixi məkanlarından - dəniz sahilindən keçməklə, azarkeşlərdə xoş ovqat yaratmış olur. Bu idman tədbiri vasitəsilə Bakının gözəlliyi, tarixi məkanları və dinamik inkişafı bütün dünyaya nümayiş etdirilir. Bildiyimiz kimi, "Formula 1" yarışının Azərbaycanda keçirilməsinin daha üç il uzadılması da Azərbaycanın Qran-Priyə uğurla ev sahibliyi etməsinin göstəricisi idi. Təbii ki, növbəti dəfə paytaxtımızda keçirilən "Formula-1" yarışları yüksək standartlara cavab verəcək. Təhlükəsizlik, infrastruktur hazırlığı bunun əyani göstəricisidir.

Əminliklə demək olar ki, bu gün Azərbaycan özünü təsdiq edən zəngin və güclü dövlətdir. Növbəti dəfə də "Formula 1" Azərbaycan Qran-Prisinə uğurla ev sahibliyi edəcək və hər zaman olduğu kimi, yüksək təşkilatçılığı ilə öz sözünü deyəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qloballaşmanın məhsulu - ixtisaslaşma, robotlaşma



***Əsrimizin ən müasir bəlası olan qloballaşma iqtisadi inkişafı, beynəlxalq əminamanlığı təmin etsə də, onun yaratdığı yarış və döyüş meydanları dövlətlər arasında mübarizəni kəskinləşdirib. Bu nəfəs kəsən mübarizə də dövlətləri yüksək və bəzən də ifrat istehsala yönləndirir. Çünki qlobal arenada daha çox resurs daha çox gücdür. Güc isə birbaşa haqlıdır.***

ARAŞDIRMA

Beləliklə, bu istehsal və texnoloji inkişaf yarışından qalib ayrılmaq üçün dövlətlərin və şirkətlərin daha çox robotla bərabər, robotlaşmış, ixtisaslaşmış işçiyə ehtiyacı var. Çünki onlar daha tez başa gəlir, asılıdır və heç yerə qaça bilməz. Onlar maaş aldıqları işdə etdiklərinin səbəbini belə axtarmırlar. İxtisaslaşma birbaşa insan fərdinin azadlığını sual altında qoyur. Belə düşünək ki, bir firmanın bütün iqtisadi hesablamalarını dəqiqliklə və peşəkarlıqla çıxaran işçi təhsil həyatı boyu yalnız iqtisadiyyatla məşğul olub. O tarixi, ədəbiyyatı, döyüşməyi, odun doğramağı və s. bilmir. Deməli, o bu və ya başqa bir firmadan birbaşa asılıdır. Hərtərəfli olmayan insan heç vaxt azad ola bilməz. Belə ki, həmin işçinin taleyi firmanın onun sənədlərinə yazacağı mənfi rəydən asılıdır. İxtisaslaşmanın əsası isə orta məktəbdə qoyulur, universitetlərdə isə möhkəmlənir. Məsələn, mən 9-cu sinifə qədər fizikanı oxuya bilmişəm. Amma olduğum profil sinif, qəbul imtahanının tələb etdiyi çətinləşdirilmiş ixtisas fənləri məni fizikadan və digər təbiət elləriindən uzaqlaşdırıb. Universitetimdə isə eyni qayda ilə bütün təbiət elmlərini bir semestr keçməklə kifayətlənmişik. Tutaq ki, mən müəyyən müddət sonra siyasətçi olacam amma universitetim məni hərtərəfli insan kimi yetişdirib, yoxsa ixtisaslaşmış robot kimi?

İxtisaslaşmadakı məqsədlər ilk başda sadəcə daha praktik və sürətli təhsil üçün görülə bilər. Amma o bizim birbaşa azadlığımızı əlimizdən alır. Məsələn, mən ümumiyyətlə, yaxşı döyüşə bilməyən prezident namizədinə heç vaxt səs verməzdim. Çünki verdiyi vədlərdən çox mən onun özünü oxuyacağam. Hərtərəfli olmayan insan niyə ölkəmi idarə etməlidir? Hər bir bacarıq insanın gözüdür. Bacarmadığımız hər sahə bizi daha da kor edir. Mükəmməl insan ən çox görən insandır.

Düşünmək, öyrənmək, bilmək, hiss etmək, inanmaq, döyüşmək ümidi ilə...

***Zərdüşt Quluzadə***

# Koçaryanın milləti barədə əminliyi



***Sizi bilmirəm, amma mənə elə gəlir ki, sabiq ikinci erməni prezidenti Robert Koçaryan öz millətinin "əsəbi ilə oynayır". Yəni "dövlətin əsas funksiyalarından biri -öz təhlükəsizliyini təmin etməkdir" deməklə, elə bil nəsə bir yenilik kəşf etdiyini düşünür. Guya vaxtilə o, ermənilərə prezident kimi rəhbərlik edəndə, Ermənistan sərhədi keçilməz olub. Yəni, erməni sərhədini heç bir quş da səkə bilməyib. Məncə, Koçaryan bunları xalqına bəyan etməklə, onları yeni baş nazir seçimində tərəddüdlə üz-üzə qoymuş olub. Axı, niyə də, Ermənistanda prezident olduğu dövrdə "onun yaratdığı hərbi qüvvənin" qorxusundan sərhədinə yaxın düşməyə cəsarət etmədiyi bir kəs, yəni Koçaryan niyə də yenidən ölkənin baş naziri kimi özünü sınamasın?***

Budur, erməni çobanları ombudsman Arman Tatoyana şikayətçi düşüblər ki, "sərhədimizə" yaxınlaşan Azərbaycan əsgərlərinin qorxusunda daha qoyun da otara bilmirik. Doğrudan da, "dünyanın seçmə millət" nümayəndələrinin belə şikayətlənməsi "böyük dərddir".

Baxın, elə buna görə də, Koçaryana haradasa "haqq qazandırmağa dəyər". O, açıq deməsə də, amma üstüörtülü şəkildə baş nazir olacağı təqdirdə, heç bir dövlətdən hərbi yardım istəməyəcəyini, Ermənistanın üzləşdiyi bütün problemləri "yerli resurslar" hesabına həll edəcəyini bildirir.

Qeyd edilməlidir ki, Koçaryan sabiq olanda nə olar, düz danışır da... Bu adam deyir ki, ay mənim millətim, siz kömək üçün niyə KTMT-yə müraciət edirsiniz. Məgər siz ermənilər Azərbaycanın bu təşkilatda təmsil olunmamasına baxmayaraq, amma onun təşkilatdakı dəyərinin Ermənistandakından çox olduğunu bilmirsiniz? Məgər siz, elə mən də daxil olmaqla bilmirik ki, KTMT-yə üzv olan Belarusiya, Qazaxıstan və digər ölkələr Azərbaycana Ermənistandan artıq önəm verirlər. Koçaryana görə, belə olan halda, Ermənistanın KTMT-yə ünvanladığı müraciətlər cavabsız qalacaq.

...Belə görünür ki, Robert Koçaryan Ermənistana rəhbərlik etdiyi dövrdəki illərini elə-belə yelə verməyib. Yəni prezident olduğu illərdə öz erməni xalqının içinə dərindən nüfuz edərək, onu daha yaxından tanıya bilib. Əgər belə olmasaydı, o, ermənilərin "News.am" saytına verdiyi açıqlamasında artıq sınmış millətinin bundan sonra müqavimət göstərməyəcəyinə və ölkənin bütün məsələləri ilə bağlı sənədləri imzalamaq məcburiyyətində qalacağına əminlik bildirməzdi.

***Ağasəf Babayev***

# Jurnalistika onun həyatıdır

***Xeyli vaxt idi onun haqqında yazmaq istəyirdim. Bəlkə jurnalist olmamağım, tez-tez görüşərkən ürək sözlərimi özünə deməyim məni bu fikirdən daşındırırdı. Ancaq onun yubiley yaşını qarşılaması mənim istəyimi reallaşdırmağa fürsət verdi. Və bunu borcum hesab etdim.***

















İlk tanışlığımızı xatırlayıram, dünənmiş kimi. Tibb Universitetini bitirib təyinatla doğma Yevlaxa dönmüşdüm, Təcili tibbi yardım stansiyasında ilk iş günüm idi. Növbəti çağırışa gedən əsnada baş həkim məni çağırıb dedi: "Əminə xanım Yusifqızı üçün gedirsən, rayonda böyük nüfuzu olan xanımdır, bax, diqqətli ol ha". Həyəcanlandım, haqqında eşitdiyim, hamının prinsipial, obyektiv bir jurnalist kimi tanıdığı Əminə xanımı görəcəkdim.

Çağırışına gəldiyim xəstə mehribanlığı, təvazökarlığı ilə məni heyran elədi, ağrılarını da ayrı bir baməzəliklə söylədi. Səmimi ortam mənə - gənc həkimə düzgün ilkin yardım etməyə kömək oldu. Elə o gündən əsası qoyulan dostluğumuz bu günə qədər qüsursuz yol gəlir. Bəkə dostluqdan ötə, anam qədər doğma, səmimi, mehriban.

İstedad və zəhmət birləşəndə insan çox namümkünləri mümkün edir. İstedad və zəhmət olanda insan şəxsiyyət kimi parlaya bilir, hansı mühitdə yaşamasından asılı olmayaraq. Əminə xanım öz həyatı ilə buna gözəl örnəkdir.

Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsindən məzun olduqdan sonra paytaxt Bakıda qalmaq, işləmək imkanlarının olmasına rəğmən rayona qayıdıb və 45 ildir ki, bir əyalət qəzetində çalışır. 30 ildir ki, "Kür"ün Baş redaktorudur. Korrektorluqdan baş redaktorluğa qədər yol gəlib. Həm də öz peşəsini sevərək, ona dəyər verərək, sanballı yazılara müəlliflik edərək.

Orta nəsil yevlaxlılar yaxşı xatırlayar, onun yerli qəzetdə gedən kəskin felyetonlarını, digər maraqlı yazılarını. Rayon həyatının elə bir sahəsi olmazdı ki, orada mövcud olan nöqsan və çatışmazlıqlar, qanunazidd hallar Əminə xanımın tənqid hədəfi olmasın. Yazılar həm də ona görə oxunaqlı olardı ki, şirin bir dillə qələmə alınardı. Yevlaxda əməyi, işi ilə fərqlənənlər barələrində qəzetdə dərc olunan məqalənin müəllifi Əminə Yusifqızı olanda daha çox məmnun qalırdı.

Əminə Yusifqızının Yevlaxın ictimai-siyasi həyatındakı rolu haqqında ən gözəl fikirlər söyləmək olar.

Yeni Azərbaycan Partiyası yarandığı ilk günlərdən onun üzvü olan Əminə xanım keçirilən seçki və referendumların qəzet vasitəsilə təbliği işini yüksək səviyyədə keçirməklə qalmayıb, YAP Yevlax Rayon Təşkilatının idarə heyyətinin üzvü kimi bütün tədbirlərdə ziyalı mövqeyi ilə yer alıb. Şahidiyəm yerlərdə görüş zamanı insanların ona sevgisinin, rəğbətinin.

Tale elə gətirib ki, dörd çağırış parlament seçkilərində həmyerlilərimin səsi olmaq səlahiyyəti qazanmışam. Bütün seçkilərdə vəkillərimdən biri olub Əminə xanım. Onun təşkil etdiyi seçiçi görüşləri həmişə fərqlənirdi. Həmin görüşlərə insanlar axın-axın gəlirdi. Çünki illərə dayanan dostluğumuz bizi bir-birimizə çox yaxşı tanıtmışdı və insanlar tanıdıqları, inandıqları Əminə xanımın təqdimatına, mənimlə bağlı söylədiklərinə inanırdı. Həmişə mənə deyirdi: seçicilər sənə çox inanırlar. Ona görə də mən də ürəklə qoşuluram bu siyasi kompaniyaya. Və sənin qalib olacağına zərrə qədər də şübhəm yoxdur. Seçkilərdən sonra o, seçicilərimin problem və qayğılarının həlli ilə bağlı müraciətlərdə də yer alır və dostluğumuza rəğmən yaxşı nəticə əldə edilənədək çox tələbkar olur. Bu da onun xalq adamı olmasından irəli gəlir. Şəxsi söhbətlərimizdə bəzən həddsiz sərtliyini belə əsaslandırır: "Xalqı narazı salmaq olmaz. Xalqa xidmətin Prezident İlham Əliyev nümunəsi var".

...44 günlük Vətən müharibəsində Azərbaycan xalqı tarixinin Zəfər səhifəsini yazdı. Fəxr və qürur, eyni zamanda minnətdarlıq hissilə bildirirəm ki, bu savaşda yevlaxlı gənclər də ləyaqətlə döyüşdülər və Vətən uğrunda şəhid oldular. Həmin ağır günlərin həyəcan və narahatlığını yevlaxlılar da yaşadılar. Şəhidlərin dəfni izdihamlı olur. Mən bu gün də davam edən şəhid ailələrinə ziyarətlərimizi xatırla-yıram. Çox zaman bir yerdə gedirik. Əminə xanım şəhid analarına, xanımlarına, bacılarına təkcə təsəlli sözləri söyləməklə qalmırdı, onun şəhid məzarları başında necə göz yaşları tökdüyünün şahidiyəm. Daha təqdirəlayiqi isə o idi ki, yorulmaq bilmədən şəhəri küçə-küçə, rayonu kəndbəkənd gəzib ən qısa vaxtda şəhidlərin hər birinin həyat hekayəsini ustalıqla qələmə almışdır. Və həmin yazıları baş redaktoru olduğu "Kür" qəzeti daxil, müxtəlif mətbu orqanlarda dərc etdirir.

O, sədaqətli övladdır, hələ də anasından danışarkən elə həyəcanlanır, elə üzülür ki, sanki anasın bu dəqiqə itirib. Anası, II Dünya müharibəsinin veteranı, Azərbaycanda yaxşı tanınan, rəhmətə gedənədək 2 nömrəli tam orta məktəbdə direktor müavini işləyən, mənim də müəllimim olan Nazxanım Səfərova kimi bir anadan həyat dərsi alıb Əminə xanım. İndi də əhvalı bir balaca pozulanda rahatlığı anasının qəbri başında, onunla "söhbət"də tapır.

Əminə xanım ana kimi də müqəddəsdir, əvəzolunmazdır. İki övladı da ali təhsilli mütə-xəssisdirlər. Nəvələrini sevən nənədir. O, təkcə öz övladlarına ana olmadı 70 illik ömründə, hamımızın anası oldu. Ən dəqiq nümunə mən özüməm. Ən kədərli və xoş günlərimdə, ehtiyacım olduğunda ana kimi, bacı kimi yanımda olub. Əminə xanım bu gün də elədir, anadır, bacıdır, dostdur, həmdərddir, fikirdaşdır hər birimizə. Uca Yaradandan arzu edirəm ki, o, bu vəzifəsini uzun illər davam etdir-sin. Çünki tutduğumuz mövqeyimizdən, işimizdən, sosial statusumuzdan asılı olmayaraq hər birimizin səmimiyyətə, mərhəmətə, təmənnasız dost sevgisinə ehtiyacımız var.

Əminə Yusif qızı Əhmədova əməkdar jurnalistdir. "Tərəqqi"medallının daşıyıcısıdır. "Qızıl qələm", "Həsən bəy Zərdabi", "Məhsəti" mükafatlarına layiq görülüb, çoxlu sayda jurnalist yazıları müsabiqələrinin qalibi olub, diplom və pul mükafatı qazanıb. Ali Media mükafatçısı, beynəlxalq jurnalistdir. Bu gün də çətinliklərə baxmayaraq "Kür" qəzetinin azalmış kollektivi ilə əl-ələ çalışır, həm də gənclik həvəsi ilə. Özü də etiraf edir ki, jurnalistika onun həyatıdır.

...Ömrü yaradıcılıqla keçən insanlar haqqında yazmaq olduqca çətindir. Onlar söz sərrafıdırlar. Məqamında deyilməyən və səmimi olmayan fikirləri tez tanıyır və qəbul etmirlər. Mənsə Vətən, dövlət təəsübkeşli, qəlbi xalqa sevgi dolu xanım-Əminə Yusifqızı haqqında pafossuz, bər-bəzəksiz, səmimi söz açmağa çalışdım. Yubileyin mübarək, sevimli dostum!

***İlham MƏMMƏDOV,***
***Milli Məclisin deputatı,***
***YAP Yevlax Rayon***
***Təşkilatının sədri***

# “Xarıbülbül” musiqi festivalı dünyaya mesajdır

***Azərbaycan Prezidenti İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın 44 günlük Vətən müharibəsində erməni işğalçılarından azad edilməsi ilə nəticələndi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Azərbaycan XXI əsrin müharibəsini apardı və hərb tariximizə möhrünü vurdu. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan Vətən müharibəsində Azərbaycan qalib xalq oldu. 30 illik bir həsrətə son qoyuldu və Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmiz böyük nailiyyətlərə imza atdı.***

2020-ci ilin noyabrın 8-də 28 illik həsrətdən sonra Şuşa şəhəri işğaldan azad edildi. Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər Xiyabanında Azərbaycan xalqına müraciətində “Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”, deyərək xoş müjdəni verdi. Cənab İlham Əliyev bütün dünyaya Azərbaycanın gücünü, tarixi ədaləti diplomatik yol ilə bərpa etdiyini göstərdi. Ali Baş Komandanın müdrik siyasəti nəticəsində torpaqlarımız bu gün azad nəfəs alır və bu gün torpaqlarımızda yeni yüksəliş dövrü başlayıb. İşğaldan azad olunan ərazilərdə infrastruktur layihələrə start verilib. Artıq Şuşada elektrik enerjisinin verilişi təmin edilib. Dövlət başçısının “Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında”, eləcə də “Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında” Sərəncamları Şuşada həyata keçiriləcək tədbirlərin davamlı olmasından xəbər verir.

Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir. Şuşada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, bu müqəddəs şəhər yenidən dirçəlir və yeni bir inkişaf, abadlıq və quruculuq dövrünə qədəm qoyub.

Uzun illərdən sonra yenidən Şuşada, Cıdır düzündə “Xarıbülbül” musiqi festivalının keçirilməsi bir daha dünyaya göstərmiş oldu ki, işğaldan azad olunan torpaqlarımızda yeni, qaynar həyat başlanıb. Azərbaycan öz ənənələrinə, dəyərlərinə sahibdir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə təşkil olunan “Xarıbülbül” musiqi festivalının şəhidlərimizin əziz xatirəsinə həsr olunması da böyük məna daşıyırdı. Əlbəttə ki, “Xarıbülbül” musiqi festivalı hər bir azərbaycanlı üçün böyük qürur idi. Musiqi beşiyi, musiqi məbədi olan Şuşada belə bir tədbirin keçirilməsi hər birimizin müqəddəs arzusu, istəyi idi ki, bu gerçəkliyə çevrildi. “Xarıbülbül” musiqi festivalının açılışında çıxışında Cənab İlham Əliyev festivalın məhz Ramazan bayramı ərəfəsində təşkil edilməsinin təsadüfi olmadığını bildirib: “Biz öz dini, milli, mənəvi köklərimizə bağlı olan xalqıq. Əks-təqdirdə, biz heç vaxt işğala son qoya bilməzdik. Biz bütün bu illər ərzində bir amalla yaşamışıq - torpaqları azad edək, ədaləti bərpa edək, milli ləyaqətimizi qoruyaq və buna nail olduq”.



**Habil Qurbanov Yeni Azərbaycan Partiyası Zaqatala rayon təşkilatının sədri**

Dövlət başçısının Sərəncamı ilə Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi doğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. Bu Sərəncamla Vaqif Poeziya günləri və “Xarıbülbül” festivalı da bərpa olunub. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan olunması dünyaya bir mesajdır. Bu, Azərbaycan xalqının öz tarixinə, ənənələrinə, mədəniyyətinə sahib oması deməkdir.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Heydər Əliyev Fondu tərəfindən Molla Pənah Vaqifin məqbərəsi bərpa olunacaq. Şuşada yeni məscidin təməlinin qoyulması və Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dəryələrinə millimənəvi islami dəyərərinə olan ehtiramın nümunəsidir. İyirmi doqquz ildən sonra ilk dəfə Şuşada bayram namazı qılındı, azan səsi eşidildi. Bütün bu və ya digər amillər olduqca qürurvericidir. Dövlət başçısının bildirdiyi kimi, “Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir”.

Vurğulamaq yerinə düşər ki, “Xarıbülbül” musiqi festivalının ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı “Azərbaycan musiqisində multikulturalizm” mövzusunda təqdim edilməsi də təsadüfi olmadı. Azərbaycan dünyaya bir mesaj verdi ki, Azərbaycan multikultural, tolerant bir dövlətdir. Müxtəlif xalqların birgəyaşam mədəniyyəti baxımından dünya xalqlarına, dünya insanına nümunədir. Müxtəlif xalqların və dinlər arasında qarşılıqlı hörmətə və etimada əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətlərinin ölkəmizdə mövcudluğu yüksək tolerantlıq ənənələrinin formalaşdığı dünyəvi, çoxmillətli və çoxkonfessiyalı dövlət olaraq Azərbaycanı təqdim edir. Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri birgə yaşayır və ölkəmizin uğurlu inkişafına töhfələrini verirlər. Şuşanın tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması bu məkana xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Cənab Prezident “Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu”, deməklə bu tarixi şəhərin məğrurluğunu, müqəddəsliyini ifadə etdi.

# Xəbərdarlıq: “Repetitorluğun genişlənməsi fəsadlara yol açacaq”

“Nəzərə çatdırım ki, SSR dövrünü nəzərə alsaq, o dövrdə də müxtəlif fənlərdən şagirdlər hazırlığa gedirdilər. Yəni, repetitor fəaliyyəti o dövrdə də var idi. Hansısa fəndən zəifliyi olan şagirdlər mütləq repetitor fəaliyyətinə üz tuturdular. Əvvəl repetitorluq, hazırlıq kursları və tədris mərkəzləri bu qədər inkişaf etməmişdi. Lakin, 2000-ci ildən bu günə qədər təəssüf hissi ilə qeyd edirəm ki, ölkəmizdə təhsilin səviyyəsinin aşağı olması repetitor fəaliyyətinin daha da çiçəklənməsinə gətirib çıxarıb. Bu da hər bir Azərbaycan Respublikası vətəndaşının təhsil hüququnun pozulmasının nəticəsidir. Çünki, konstutisiyon olaraq hər birimizin pulsuz təhsil almaq hüququmuz var. Lakin, təəssüflər olsun ki, bu pulsuz təhsili biz orta təhsil müəssisələrində keyfiyyətli formatda əldə etmədiyimiz üçün repititor və hazırlıq kurslarına üz tuturuq. Bunun nəticəsində də, qarşıdakı dövrlərdə kütləvi şəkildə savadsızlıq müşahidə olunacaq. Hər ailənin büdcəsi imkan vermir ki, uşaqları repetitor yanına üz tutsun. Yəni, ölkədə təhsil alanların 5-6 faizi ideal imkana sahibdirsə, yerdə qalan müəyyən qədər orta imkana sahibdir və hazırlığa gedir. Biz geridə qalanı düşünməliyik. Onlar yalnız dövlətin ümumtəhsil müəssisələrində dərslər zamanı əldə etdikləri bilik əsasında müsabiqədə iştirak edirlər. Təsəvvür edin ki, repetitorlar və hazırlıq kursları olmasa, dövlətin təhsil müəssisələrində oxuyan şagirdlərin nəticəsi sıfır olar. Çox bərbad bir vəziyyətdir. Orta ümumtəhsil müəssisələrində təhsilin keyfiyyəti olduqca aşağıdır. Bu da repetitor fəaliyyətinin artmasına gətirib çıxarır.



Yekunda da təhsil bərbad durumla qarşı-qarşıya qalır”. Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi deyib.

Onun sözlərinə görə, bəzi müəllimlər tərəfindən fikirləri yalnış anlaşılır: “Onlar elə başa düşür ki, biz bu açıqlamanı verdiyimiz zaman onlarla hər hansı şəxsi qərəzlik edirik. Bu heç də belə deyil. Yəni, burada heç kim öz cibini və mənafeyini deyil, millətin balalarını düşünməlidir. O baxımdan ki, hamımız əl-ələ verib təhsilin dirçəlməsinə səbəb ola bilərik. Çünki, bu şəkildə rəqabətin olması inkişafa nail olmağa imkan yaradar. Bu günləri biz repititor və hazırlıq kursları sayəsində yüksək ballar görürük. 600-700 bal toplayan şagirdlərin hamısı repetitor yanına getmiş uşaqlardır. Bəziləri də yüksək səviyyəli özəl liseylərin şagirdləridir. Yəni, biz məsələlərin qarşısını almaq üçün çalışmalıyıq ki, orta ümumtəhsil müəssisələrində çalışan müəllimlərin əmək haqqını yüksək edək. Yəni, şagirdlərin sırf dövlətin təhsil müəssisələrində keyfiyyətli təhsilin təmin olunmalıdır. Həmçinin, müəllimlərə nəzarət olmalı, onların dərsdən kənar repetitor fəaliyyəti ilə məşğul olmaları mütləq izlənilməlidir. Bir də ixtisası tamamilə fərqli olan müəllimlər var ki, onlar da repetitor fəaliyyəti ilə məşğul olurlar. Yəni, mexanikanı bitirən müəllimin biologiyadan dərs tədris etməyi biyabrçılıqdır”.

Ekspert sözlərinə belə davam edib: “Bizim verdiyimiz təhsilə inamımız yoxdur. Söhbət dövlət ümumtəhsil müəssisələrindən gedir. Məktəbəqədər 3-4 yaşlı uşaqları hazırlığa qoyuruq ki, orta ümumtəhsil müəssisəsinə qəbul olsun. İbtidai sinifdə də həmçinin, yenidən hazırlığa göndəririk ki, yuxarı siniflərə adlaya bilsin. Yuxarı siniflər də buraxılış və universitet imtahanlarından keçmək üçün repetitor yanına üz tutur. Bundan sonra bakalavrı bitirib magistratura imtahanı vermək üçün hazırlaşırlar. Sonra da dövlət qulluğu gəlir. Siz təsəvvür edin ki, bizim verdiyimiz təhsilə o qədər inamsızlığımız var ki, hər birində mütləq imtahan etməliyik. Bu birbaşa inamsızlığın nəticəsidir. Demək ki, keyfiyyətli təhsil verilmir. Belə olan halda da hər kəs repetitora üz tutur. İmkanı olmayan da aşağı balla zəif yerə qəbul olur. Bunun üçün dövlət mütləq addım atmalıdır. Bu ildən etibarən ibtidai siniflərdə 20-25 nəfərdən ibarət qrupların formalaşması, bu şəkildə davam edərsə mütləq nəzarət altına alınmalıdır. Bu ildən etibarən ibtidai siniflərdə 20-25 nəfərdən ibarət qrupların formalaşması, gələcəyə ən azı ümid verir. Bu hazırlıq qrupları özünü doğrultsa, gələcəkdə repetitorlara və hazırlıq kurslarına bir o qədər ehtiyac qalmayacaq”.

***Ayşən Vəli***

## YAP Tərtər rayon təşkilatının üzvləri şəhid ailələrini ziyarət ediblər



Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatının üzvləri Vətən müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin ailələrini ziyarət ediblər. Təşkilatın bir qrup partiya fəalları Tərtər şəhər sakini, şəhid Hacıyev Qubad Cəmil oğlunun və rayonun Dəmirçilər kənd sakini, şəhid İsmayıllı Şamil Kamil oğlunun ailələrini ediblər.



YAP Tərətər rayon təşkilatının sədri Ramiz Şabanov ziyarət zamanı xalqımızın belə qəhrəman oğullarımızla fəxr etdiklərini, torpaqlarımızın qorunması uğrunda canından keçən bütün şəhidlərimizin hünərinin hər bir gəncə örnək olması və hər bir Azərbaycan vətəndaşının öz qəhrəmanlarını tanımasının vacibliyini qeyd edib.

R.Şabanov onu da vurğulayıb ki, şəhid və qazilərimizin problemlərinin həlli daim dövlətin diqqət mərkəzində olub: “Həmişə ölkəmizdə hər bir şəhid ailəsi, hər bir qazi Azərbaycan Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, Azərbaycan dövlətinin daim diqqətindədirlər”. Təşkilat üzvləri, həmçinin ailənin problemləri ilə maraqlanıb və bəzi problemlərin həlli üçün köməklik göstəriblər.

Şəhidin ailəsi böyük fəxr hissi ilə şəhidlərimizin qanını yerdə qoymadıqlarına, xalqımıza qələbə sevinci yaşatdıqlarına görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və müzəffər Azərbaycan ordusuna minnətdarlıq ediblər. Eyni zamanda, ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğıdan məmnunluq ifadə olunub. Qeyd olunub ki, şəhid Qubad Hacıyev Cəmil oğlu ölümündən sonra “Suqovuşanın azad olunması uğrunda” və şəhid Şamil İsmayıllı Kamil oğlu şəhidlik zirvəsinə ucaldıqdan sonra “Suqovuşanın azad olunması uğrunda” medallarına layiq görülmüşlər.

***R.HÜSEYNOVA***

# Erməni provokasiyaları nəyə xidmət edir?

***Qalib müharibəmizdən sonra Azərbaycan özünə yeni hədəflər belirləməkdədir. Bu hədəflər isə yalnızca bizim tarixi torpaqlarımızdan ibarətdir. Məsələ qədim Azərbaycan torpağı olan Zəngəzur barədədir. 10 noyabr sazişində və Prezident İlham Əliyevin verdiyi bəyanatında Zəngəzurun taleyi barədə əsaslar əldə edirik.***




Bu əsaslara görə Zəngəzur öz sahibinə qayıdır, Ermənistan da blokadadan çıxır. Bir sözlə erməni dövləti də dünya üzünə baxa biləcək. Erməni dövlətinin bu addımı qonşu ölkələrlə strateji tərəfdaşlığa da gətirib çıxaracaq.

Amma erməni tərəfi həmişəki kimi dincliyinin qədrini bilmir. Belə ki, onlar provokasiya edərək nələrəsə nail olacaqlarını düşünürlər. Onlara elə gəlir ki, bizim açacağımız atəş erməniləri yazıq duruma düşürəcək, yaranan yeni münaqişədə onlar daha çox havadar əldə edəcək və itirdiklərini geri qaytaracaqlar. Sırf bu məqsədlə onlar təyin olunmuş sərhədləri keçməyə çalışır, atəş açır, hər cür qıcıq yarada biləcək hərəkətlər edirlər.

Lakin hərbiçilərimiz peşəkarlıq nümayiş etdirir, onların bütün cəhdlərini atəş açmadan, itki vermədən boşa çıxarırlar. Ali Baş Komandanın nitqində bu cəhdlərin yenidən təkrarlanacağı təqdirdə düşmənin yerindəcə məhv olunacağı deyilirdi. Beləliklə bu ehtiyatlı, eyni dərəcədə də qətiyyətli diplomatik və hərbi addımların atılması ermənilərə heç bir şans tanımır. Nikol Paşinyan və başqalarının əmrləri ilə Azərbaycan tərəfindən gələn güllə ilə vurulmağı gözləyən ermənilərin ən böyük istəyi ölümcül yara almamaq idi. Biz buna əldə olunmuş kadrlarda şahid ola bilərik. Onlar əsə-əsə sərhədçilərimizin önündən sərhəd keçməyə çalışırdılar. Görəsən bunu etmək üçün onalara nə qədər pul vəd olunmuşdu? Bəs əli boş geri dönən provokasiyaçıları hansı cəza gözləyirdi? Yəni bu yazıq millət daha nə qədər təhlükəyə atacaqlar.

Digər tərəfdən görəsən onlar hansısa qüvvənin təsiri ilə provokasiyalar törədirlər? Yoxsa bu axmaqca fikir onların öz zehninin məhsuludur. Sərhədlərinə qoymaq üçün əsgər tapa bilməyən ölkə niyə münaqişə yaratmağa çalışır? Yəqin ki, onlar yer üzündən tamamilə yox olmaq istəyirlər. Çünki beynəlxalq güclər və qurumlar onların nə qədər yalançı olduğundan əmindir. Digər tərəfdən isə onlar güclərinin bu torpaqlarda keçməyəcəyini də bilirlər. Buraların öz ağası var, necə ki onlar öz gücünü isbat edərək, öz ədalətini bərpa edib.

Azərbaycan tərəfinə isə öz düşünülmüş, ehtiyatlı və qətiyyətli siyasətini davam etdirməklə bərabər, səbir eləmək qalır. Belə ki, tədricən təmin olunacaq ərazi bütövlüyümüzdə tələsmək olmaz. Əminliklə demək olar ki, xəritədə olan ani və böyük dəyişikliklər daha çox diqqət cəlb edəcəkdir. Bunun əvəzində isə Azərbaycan ehtiyatlı siyasətini yürütməklə öz ərazi bütövlüyünü tam təmin edəcəkdir. Azərbaycanın özündə belə bu fikrə inanmayanlar olsa da faktiki olaraq torpaqlarımızın qayıtması uğrunda mübarizəmiz hər saat davam edir və irəliləyir.

Buna kölgə salmağa çalışan müxalif qüvvələr də mövcuddur. Onlar nəzərə almırlar ki, hər şey danışıqda olduğu qədər sadə deyil. Bu qədər təzyiqlərə rəğmən müharibəni davam etdirmək çox çətin məsələdir. Buradakı erməni əhalini çıxarmaq isə daha çox beynəlxalq qınaq əldə etmək anlamına gəlir. Ermənilərin özü belə qərbi azərbaycanlıları İrəvandan mərhələlərlə çıxarmışdı. Qeyd edək ki, bu hadisə SSRİ-nin avtoritar dönəmində baş verib, günümüzdə kütləvi olaraq dinc əhalini köçürmək mümkünsüz görünür. Xüsusilə bu əhali ermənilərdirsə, bu prosesin sonunda soyqırım iddiaları ilə qarşılaşa bilərik. Necə ki, onlar Osmanlı dönəmindəki köçlərini soyqırım adlandırıraq dünyaya tanıtdırmaqdadırlar.

***Zərdüşt Quluzadə***

# Jurnalist millət vəkilinin fikirlərini tənqid atəşinə tutdu - "İtirən Etibar bəy olacaq"





***"Etibar bəyin bu cür fikirlər səsləndirməsi, əslində, həm bir jurnalist, həm də sosial-ictimai fəal kimi məni təəccübləndirir", deyən Rövşən Rəsulov əlavə edib ki, əgər, onun yazılarını, statuslarını sosial şəbəkələrdə kimlərsə bəyənmirsə, problemi cəmiyyətdə yox, özündə axtarmalıdır: "Fərdin dilə gətirdiyi fikirləri cəmiyyət tərəfdən bəyənilməsini məcbur etmək olmaz.***

Hesab edirəm ki, Etibar bəyin bu cür status yazması onun şəxsi təkəbbüründən irəli gəlir. Deputat adını daşıdığına görə hər kəs onun sosial şəbəkədəki rəylərini bəyənməyə borclu deyil. Hər kəsin öz fikri, öz düşüncəsi var".

Rövşən Rəsulov onu da bildirib ki, Etibar Əliyev sosial şəbəkədəki dostlarını siyahıdan çıxara bilər, amma bu, heç də onun deputatlıq reputasiyasına üstünlük verə bilməz: "Düşünmürəm ki, Etibar bəy onun rəylərini bəyənməyən sosial şəbəkədəki dostlarını silərsə, hər hansı bir üstünlük qazanacaq, əksinə, itirən də özü olacaq. Çünki böyük ehtimal ki, o insanlar arasında Etibar bəyə səs verib ona mandat qazandıran insanlar da var və onun bu cür addım atması elə seçicilərindən imtina kimi də dəyərləndirilə bilər".

"Arzu edirəm ki, deputatlarımız bu kimi məsələdə həssas olsunlar və cəmiyyətdə nüfuzlarını qorumaq üçün daha önəmli işlərlə məşğul olsunlar. Sosial şəbəkələrdə ictimai reklam xətrinə bu cür şou xarakterli çıxışlar etməsinlər", sonda jurnalist bildirib.

***Aysel Məmmədova***

# Ruslar tərəfindən "aşağılanan" ermənidən şikayət...




Həmişə "özgə millətləri də özlərinin xeyrinə qışqırmağa, yalan xəbərlər yaymağa cəlb etməyi bacaran" (rus yazarı Aleksey Jemçujnikov) ermənilər, nədənsə, bu dəfə də ruslardan "narazılıq edirlər". Sən demə, ermənilər bu günə kimi, ruslar üçün yalnız "ehtiyac duyduqları ərazilərin ehtiyacsız əhalisi" imiş. Ermənilərin dediklərindən belə başa düşmək olur ki, bu gün onlar "yelkənsiz gəmidirlər". Kim, yeni hansı ölkə istəsə, "bu gəmini" çəkib "qanadı altına" sala bilər. Ermənilərin dediklərindən belə başa düşmək olur ki, dünən onların ruslara bəslədikləri ümidlər, bu gün ruslar tərəfindən "məhv" edilməkdədir.



Deyirlər ki, o vaxt ruslar Qarabağa varid olanda sevindik ki, "budur, artıq xilaskarlarımız" gəlir. Həmən vaxt Qarabağdakı ermənilər də, rusların pişvazına duzçörəklə çıxıb, şadyanalıq etdilər. Amma, sən demə, bütün bunlar əbəsmiş. Ruslar bura bizi qorumağa yox, bölgədəki nüfuzlarını "yenidən bərpa etməyə" gəlibmişlər. Ermənilər, buna arxada qalan 6 ayda əmin olduqlarını bildirirlər. Məsələn, deyirlər ki, 44 günlük müharibədə Qarabağdakı postlarını qoyub qaçan erməni hərbçilərini ruslar niyə yenidən qanadlarının altına alıb geri qaytarmırlar?



...Və yaxud, niyə ruslar bu gün "xalqın seçdiyi prezident" Arayik Arutyunyanı və ya o boyda məsul vəzifə daşıyıcısı olan Vitali Balasanyanı adam yerinə saymırlar? Niyə onların rəhbərliyi oturduqları ofislərdən kənara belə çıxmır?

Erməni iddiasına görə, bu gün rus sülhməramlıları Qarabağda ancaq azərbaycanlıların dedikləri ilə hesablaşırlar, ermənilərə isə, sadəcə olaraq "tüpürürlər".

...Ruslar bizə evdə oturub, azərbaycanlıların bu ərazilərdə apardıqları tikinti işlərinə mane olmamağı tövsiyə edirlər. Bu da onların bizə bəslədiyi "qardaşlıq".

...Ermənilərin dediyinə görə, ruslarla "siyasi müttəfiq" olmalarına baxmayaraq, onların sülhməramlıları hər vəhclə biz erməniləri "aşağılamağa" çalışırlar.

***Ağasəf Babayev***

# Əli Kərimlinin yeni divident qazanmaq istəyi

***Yenə də satqınlar "kadrosu", feyzbuk xəstəsi cinayətkar AXCP sədri Əli Kərimli STM-in sorğusunu "Gerçəkliyi əks etdirmir" deməsi bir daha nə qədər rəzil, mənəviyyatsız, ən əsası isə əxlaqsız olduğunun nümayiş etdirməsidir. Sən Əli Kərimli torpaqlarımız düşmən Ermənistana verərək, igid oğlullarımız torpaq yolunda canlarından keçərək şəhid olaraq torpaqlarımızı azad ediblər. Və bu gün dövlətimizin rəhbərinin nəinki torpaq yolunda şəhid olanlara, bütünlüklə hər bir vətəndaşının Prezidenti olduğunu son 17 il ərzində görüb. Ancaq sosial şəbəkələrdə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri adından istifadə edib siyasi divident qazanmağa çalışan AXCP sədri Əli Kərimli, guya ki, bu kateqoriyadan olan insanlara, şəhidlərə cəmiyyətimizdə biganə münasibət var, dövlətin onlar üzərində heç bir qayğısı və diqqəti yoxdur.***



Real siyasət meydanında iflas olmuş AXCP sədri Əli Kərimlinin virtual aləmdə müxtəlif məsələlərlə bağlı manipulyasiya edib siyasi divident qazanmasını özünün fəaliyyət fəlsəfəsinə çevirməsi heç kəsə sirr deyildir. O da sirr deyil ki, "Yurd" şefi anti-Azərbaycan dairələrindən aldığı direktivlərə uyğun olaraq öz aləmində ictimai şüurla oynamağa cəhd göstərməklə, Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə edərək cəmiyyətdə çaşqınlıq yaratmağa çalışmaqdır. Ancaq bu gün sosial şəbəkələrdən istifadə edən gənclərdən "Əli Kərimli kimi satqınların cavabı verilməlidir" çağırışı edilib.

Ramil Vəlibəyov adlı sosial şəbəkə istifadəçisi status paylaşaraq yazıb ki, Qarabağ müharibəsi xalqımızın ən ağrılı yarasıdır. Bu müharibədə şəhid olan, yaralanan, əlil qalan insanlar isə qürurumuz, cəmiyyətimizin həssas üzvləridir. Hansısa toplantıda, yaxud məclisdə içəri bu kateqoriyadan olan insan daxil olarsa qeyri-ixtiyari gənclər və digərləri ayağa qalxırlar, onlara yer verirlər. Çünki bu, Azərbaycan xalqının mənəvi-əxlaqi keyfiyyətlərindən irəli gələn məsələdir: "Lakin çox təəssüflər olsun ki, bu gün bəzi antimilli ünsürlər, radikal müxalifət nümayəndələri, xüsusilə də AXCP sədri Əli Kərimli bu kateqoriyadan olan insanların problemlərini öz maraqlarına uyğun şəkildə qabartmaqla, siyasiləşdirməklə həm ictimaiyyət arasında çaşqınlıq yaratmağa, həm bu kateqoriyadan olan insanlarla dövlət arasındakı münasibətlərə kölgə salmağa, həm də sosiumda Qarabağ müharibəsi ilə bağlı fikirlərə mənfi psixoloji nöqteyi-nəzərdən qiymətin verilməsinə cəhd göstərir. Düşünürəm ki, bundan sonra heç kəs susmamalıdır. Nəinki gənclər, hətta Qarabağ müharibəsi əlilləri, şəhid ailələri susmamalı, Əli Kərimli kimi satqınların cavabını verməlidir ki, bir daha o bu kateqoriyadan olan insanların heysiyyatına toxunmasın, onların adından istifadə etməsin".

Sevinc Abdullayeva qeyd edib ki, Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin adından danışmaq Əli Kərimliyə düşməz: "Çünki bu satqının təmsil olunduğu hakimiyyətin sayəsində ermənilər torpaqlarımızı işğal etdilər, Qarabağ boyda dərdi bizim üçün yaratdılar. Ar olsun...".

Azərin Rəşidova adlı istifadəçi yazıb ki, bu antimilli ünsür üçün Vətən, dövlət və xalq anlaşıyı yoxdur: "Onun üçün əsas xaricdən gələn qrantlar və ölkəmizdə qarışıqlığın yaradılmasıdır. Sənin nə işin var Qarabağ müharibəsi əlilləri və şəhid ailələri ilə? Onsuz da bu ölkəyə çox zərbələr vurmusan".

"Əli Kərimlinin bu təbəqədən olan insanların adını anmağa belə haqqı yoxdur" - deyən Lamiyə Rövşənqızı qeyd edib ki, dövlətimiz hər bir vətəndaşının arxasındadır. Bu günədək müharibə adamlarına hansı qayğı göstərilibsə, bundan sonra da o qayğı göstəriləcək.

Müharibə iştirakçıları isə, bu çağırışından əsəbləşərək Əli Kərimlinin satqınlığı üzündən işğal olunana torpaqlarımızın azad olunması yolunda şəhid, əlil olanların adından danışmağa nə haqqın var?. Müharibə iştirakçısı Fuad Salahov bildirib ki, biz Qarabağ əlilləri, veteranları və şəhid ailələri torpaqlarımızın suverenliyi uğrunda canımızı qoymuşuq, əzizlərimizi, doğmalarımızı itirmişik: "Əli Kərimli kimdir ki, bizə ağıl öyrətsin. Bir dəfə "cəbhə" hakimiyyətə gəldi, olanımızı taladı, torpaqlarımızı satdı. İndi nəyimizi satmağa çalışır? Heydər Əliyev kaş ki, 1990-1991-ci illərdə gələrdi hakimiyyətə. Onda nə torpağımız gedərdi, nə də qız-gəlinimiz erməni əlinə keçərdi. Bir döyüşçü kimi deyirəm ki, Şuşanı Ramiz Qəmbərovu, Mikayıl Gözəlovu öldürdükdən sonra başına buxara papaq qoyan bəylər verdilər. "Cəbhə"nin vaxtında yadımızdan çıxıbmı ki, küçələrdə asudə gəzmək də olmurdu...".

Mərdan Şahıyev adlı istifadəçi nöqtə sayıla biləcək paylaşım etməklə fikirlərini açıq şəkildə ortaya qoyub: "AXCP yarandığı gündən Əli Kərimov kimi simasını itirmiş birinə görə o partiyada adam qalmayıb. Kim özünə hörmət qoydusa, o partiyadan uzaqlaşdı. Xarici havadarlarının və aldığı qrantların hesabatını vermək üçün Əli Kərimov yenə "qotur salmış dana kimi" qaşınır... Ay Əli Kərimli, sən hansı üzlə qabağımıza çıxa bilərsən? Yaddaşın pozulubsa, 1990-cı il hadisələrini görmüş insanlar hələ də yaşayır. İstifadə etdiniz, hakimiyyətə gəldiniz. Az qalmışdı ki, Azərbaycan kimi bir ölkəni darmadağın edəsiniz. Yaxşı ki, Heydər Əliyev hakimiyyətə gəldi, dağıtdığınızı nəinki bərpa etdi, Azərbaycanı bütün dünyaya tanıtdırdı. Heydər Əliyevin qurub yaratdığını davamçısı İlham Əliyev daha da çiçəkləndirir... Mən də bir Qarabağ döyüşçüsü kimi sizə xəbərdarlıq edirəm. Bizim adımızdan bir daha istifadə etsəniz dünyanın hegemon dövlətləri iqtisadi və siyasi tənəzzülə uğradığı bir vaxtda Azərbaycanda stabilliyi qoruyub saxlayan ölkə başçısı, Ali Baş Komandanın sadiq əsgəri kimi məni və mənim kimi minlərlə döyüşçünü qarşında görəcəksən".

Bir sözlə, göründüyü kimi, cəmiyyətimizin həssas təbəqəsi olan Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə edərək antitəbliğat aparmağa cəhd edən Əli Kərimlini elə bu kateqoriyadan olan insanlar, Vətənini sevən gənclər peşman etdilər və dövlətin yanında olduqlarını, cənab Prezident İlham Əliyevin siyasətini dəstəklədiklərini sübut etdilər. Bu fakt özlüyündə bir daha Əli Kərimli kimi radikal müxalifətə, həm də onlara himayədarlıq edən antiazərbaycan dairələrə bir sillə cavabı oldu.

**RƏFİQƏ**



## "Boşanmalar ən çox bu hallarda artmaqdadır"

"Boşanma halları gündəmin aktual, problemli məsələlərindəndir". Bu sözləri SİA-ya açıqlamasında "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib.

Onun sözlərinə görə, boşanmaq, bir ailənin dağılması çox ciddi problemdir: "Çünki ortada uşaqlar olur. Uşaqların psixasına təsir edir. Burada aliment məsələsi, əmlak bölgüsü kimi çoxlu sayda problemlər ortaya çıxır. Bu həm dövlət üçün, həm cəmiyyət üçün ciddi problemlərdəndir. Hesab edirəm ki, bütün dünyada bu proses eynidir. Bütün dünyada sanki qadına qarşı zorakılığın artımı baş verir və bütün dünyada qadına fiziki zorakılıq aktual məsələyə çevrilib. Bu da davranış problemlərinin olmasından qaynaqlanır. Davranış problemlərinə zorakılığı, tərəflərin sosial rollarının dəyişməsini, qanunun milli davranışa adaptasiya olunması, xəyanəti göstərmək olar. Hər ailənin özündə fərqli məsələlər, hər ailədə özünəməxsus xüsusi problemlər var. Tərəflərin münasibətlərində, tərəflərin təsiri, tərəflərin intellektual dünya görüşü, ümumiyyətlə həyata baxışı və ya uşaqlara münasibəti, onların özünün öz eqolarını uşaqların üzərində tətbiq etməsi uşaqları bu məsələlərə qatması kimi hallara tez-tez rast gəlirik".

Mehriban Zeynalova həmçinin qeyd edib ki, zorakılıq aktual məsələdir: "Qadınların döyülməsi, xəsarət alması, məhdudlaşdırılması. Amma ənənəvi rolların dəyişməsi kifayət qədər bu məsələlərə öz təsirini göstərir. Yəni ənənəvi olaraq, qadın susmalıdır, danışmamalıdır və yaxud zorakılığa dözməlidir. İnsanların öz azadlığının, öz düşüncə tərzinin formalaşmasına insanların öz problemlərini bərabər həll etməsi ilə razılaşa bilmirlər. Bununla yanaşı, ailənin kökündə dayanan məsələlərdən biri də güvəndir. Güvən olmadıqda təməl ailə münasibətlərində artıq şübhələr yaranır. Şübhələr və inamsızlıq ailənin istənilən davranışına rəvac verir. Ailələrdə ilkin mərhələlərdə artıq bir-birilərinə inamsızlıq yaranır. Bir-birilərinə yoxlama aparırlar, təqib edirlər. Bu güvənsizlik məsələsi bir çox ailənin dağılmasına səbəb ola bilir".

***Arzu Elsevərqızı***

## "Nar"ın regionlar üzrə 4G istifadəçilərinin sayı artıb




Mobil operatorun bölgələrə xüsusi diqqət ayırması sayəsində 2021-ci ilin birinci rübü ərzində regionlar üzrə 4G istifadəçilərinin sayında 42% yüksəliş qeydə alınıb. Buna "Nar"ın regionlarda baza stansiyalarının sayını artırması, paytaxtla yanaşı, bölgələrdə satış və xidmət mərkəzlərini yeniləməsi, sərfəli tarif və paketlər, eyni zamanda "Nar+" tətbiqi vasitəsilə müştəri xidmətlərinin daha rahat və əlçatan olması təsir edib.

Hər zaman müştərilərinin ehtiyaclarını qarşılamağı hədəfləyən mobil operator 2021-ci ilin ilk rübü ərzində regionlarda 30-a yaxın yeni baza stansiyası quraşdırıb. Paytaxtla yanaşı, regionlarda da şəbəkənin təkmilləşdirilməsi "Nar" abunəçilərinin kəsintisiz və sürətli internetdən istifadəsini daha da artırıb. Qeyd edək ki, "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 90%-ni əhatə edir və 8740-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.

## "Xalqımız ayıq xalqdır və ağı-qaradan seçir"




"Azərbaycan çox önəmli qlobal və regional proseslərin mərkəzindədir. Bir tərəfdən Ermənistanla arada olan münaqişənin bitirilməsi, Azərbaycanın haqlarının təmin edilməsi üçün aktiv diplomatik proseslər keçirilir. Digər tərəfdən, regonla bağlı qlobal layihələrin müzakirəsin davam edir". Bunu SİA-ya açıqlamasında media eksperti Müşfiq Ələsgərli deyib.

Onun sözlərinə görə, hazırki mərhələdə Azərbaycanda sabitliyin olması, hakimiyyətə dəstək verib ölkəmizin maraqlarının təmin edilməsi zəruri şərtdir: "Hiss olunur ki, hansısa mərkəzlər Azərbaycanda sabitliyi pozmaq, iç problemləri qabartmaqla ölkənin diqqətini zəruri qlobal proseslərdən yayındırmaq istəyir. Əslində "hansısa mərkəz" deyəndə qeyri-müəyyən bir gücdən söhbət getmir. Söhbət beynəlxalq erməni şəbəkəsi və bu şəbəkəni himayə edən güclərdən gedir. Onlar həmişə Azərbaycana qarşı belə davranıblar: mühüm beynəlxalq proseslər zamanı - hansılar ki, Azərbaycan üçün taleyüklü önəm daşıyırlar- baş qaldırıblar, ölkədə qeyri-sabitlik yaratmağa cəhd göstəriblər. Təbii ki, bu işi özlərinin ölkə içindəki uzantıları vasitəsilə həyata keçirməyə çalışıblar. Bu gün də belədir. İllərcə mürgüləyən, marginallaşan müxalifətin birdən-birə dirçəldilməsi təsadüfi deyil. Onlar, Azərbaycanın uğurlu siyasəti ilə erməni şəbəkəsinin çökdürüldüyü bir anda aktivləşdirilirlər. Bu baxımdan niyyətləri bəllidir. Amma xalqımız da ayıq xalqdır: ağı-qaradan seçir".

***Gülyana***

# Rusiya Ermənistan-Azərbaycan sərhəd münaqişəsini necə həll etməyi təklif edir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*




***Moskva-Baku portalında İnna Lisovskayanın təqdimatında yayımlanan "Moskva-Bakı xəbərləri" proqramında son günlərdə regionumuzda gedən proseslər, həmçinin Azərbaycan-Ermənistan sərhədlərinin dəqiqləşdirilməsi ilə bağlı yaranan problemlər ətrafında maraqlı məqamlara toxunulub. Proqramda qeyd olunanları mətn və yazı formasında oxucularımıza təqdim edirik.***

### Bakı İrəvana: Bölgədə çaxnaşma yaratmayın

Ermənistanın sərhəd gərginliyinə qeyri-adekvat reaksiyası və bu məsələni beynəlmiləlləşdirmək cəhdləri bölgədə gərginliyin artmasına səbəb ola bilər. Bunu Azərbaycan Prezidenti İlham Əliyev ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri Ceyk Sullivanla telefon danışığı zamanı söyləyib. Söhbət Amerika tərəfinin təşəbbüsü ilə baş tutub.

Söhbət əsnasında İlham Əliyev Azərbaycanın bölgədə sülhün təmin olunmasına sadiq olduğunu söyləyib və münaqişənin bitməsindən 6 ay sonra bölgədə, o cümlədən Azərbaycan-Ermənistan sərhədində vəziyyətin sabit qaldığını bildirib. Eyni zamanda, Əliyev Ermənistanın sərhəd gərginliyinə əsəbi reaksiyasının və müxtəlif ölkələri bu məsələyə cəlb etmək cəhdlərinin bölgədə daha da gərginliyə səbəb ola biləcəyini vurğulayıb. Azərbaycan dövlətinin başçısı bütün mübahisələrin sülh yolu ilə və danışıqlar prosesi çərçivəsində həll olunmasının vacibliyini qeyd edib.

İlham Əliyev ABŞ Prezidentinin Milli Təhlükəsizlik müşaviri ilə Azərbaycan və Ermənistan arasında beynəlxalq sərhədin delimitasiyası və demarkasiyası barədə danışıqlara başlamaq zərurəti barədə də razılığa gəlib və 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq bu prosesin vacibliyini vurğulayıb.

Telefon danışığı zamanı tərəflər ikitərəfli münasibətlərdən məmnunluqlarını ifadə ediblər. Həm də bu münasibətlərin hər iki ölkə və bölgə üçün sülh və təhlükəsizliyin təmin edilməsi baxımından əhəmiyyəti qeyd edilib.

Xatırladaq ki, mayın 12-də rəsmi İrəvan Azərbaycan hərbçilərinin Ermənistanın dövlət sərhədini keçərək ölkəyə 3,5 kilometr irəlilədiyini elan etmişdi. Üstəlik, bəzi məlumatlara görə, Azərbaycan tərəfi Sünik (Zəngəzur-red) bölgəsindəki Qara Gölü nəzarətə götürüb. Həmin gün Azərbaycan Dövlət Sərhəd Xidmətinin rəhbərliyi Ermənistan tərəfi ilə danışıqlar aparmaq üçün Azərbaycan-Ermənistan sərhədinə gəlib. Daha sonra Qarabağdakı Rusiya sülhməramlılarının komandiri Rüstəm Muradov və 102-ci Rusiya bazasının nümayəndələri danışıqlara qatılıb. Danışıqlar davam edərkən Paşinyan KTMT-yə müraciət edib, həmçinin Rusiya prezidentindən hərbi yardım istəyib.

Azərbaycan Xarici İşlər Nazirliyi mövcud vəziyyəti şərh edərkən İrəvanı çaxnaşmamağa çağırıb və Azərbaycan sərhədçilərinin Qarabağla bağlı razılaşmalar çərçivəsində hərəkət etdiyini bildirib. Beş günlük danışıqların nəticələrindən sonra rəsmi İrəvanın açıqlamalarına görə, Azərbaycan hərbçiləri Qara Göldə olmağa davam edirlər. Paşinyan vəziyyəti böhran adlandırmağa davam edir və "sərhəddə artan gərginlik tendensiyası" olduğuna inanır.

### Rusiya problemin həllinə kömək göstərməyə hazırdır

Rusiya hər iki dövlətdən belə bir tələb gəlsə, sərhəddəki gərginliyin həllində Ermənistana və Azərbaycana kömək edəcəkdir. Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko bunu bir gün əvvəl jurnalistlərə açıqlayıb. O, Rusiya tərəfinin bu kimi məsələlərdə vasitəçi kimi təcrübəyə sahib olduğunu və bunun üçün bir müraciət olarsa, Rusiyanın yardım göstərəcəyini qeyd edib.

**Sitat: "Belə bir mühitdə tərəflərin bizə kömək, vasitəçilik üçün müraciət etmələri normal bir vəziyyətdir, xüsusən də 9 noyabr və 11 yanvar bəyanatlarının inkişafı kontekstində təcrübəmiz var. Buna görə də, belə bir müraciət yalnız bir iştirakçıdan deyil, bütün iştirakçılardan gəlsə, mən Azərbaycandan və Ermənistandan demək istəyirəm-, o zaman əlimizdən gələn köməyi göstərməyə hazır olacağıq".**

Rudenko, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv ölkələrin xarici işlər nazirlərinin mayın 19-da Düşənbədə Ermənistan-Azərbaycan sərhəddindəki gərginliyi müzakirə edəcəklərini söyləyib.

**Sitat: "Xarici işlər nazirləri gündəmdəki bütün məsələləri müzakirə etmək üçün Düşənbəyə toplaşırlar. Bu məsələnin orada müzakirə ediləcəyini istisna etmirəm, əsas müzakirənin Düşənbədə nazirlərin görüşü zamanı baş verəcəyini düşünürəm"**

Rusiya Xarici İşlər Nazirliyi də geniş bir şərhlə Azərbaycan-Ermənistan sərhədindəki qarşıdurma məsələsinə toxunub və münaqişənin həllini sonrakı demarkasiya ilə sərhəd delimitasiyası prosesinin başlanmasında gördüyünü bildirib.

**Sitat: "Bütün bu hadisələrin müstəsna olaraq sülh və danışıqlar yolu ilə həll edilməsi lazım olduğunun vacibliyindən irəli gələrək, Azərbaycan-Ermənistan sərhədinin sonrakı demarkasiyası ilə delimitasiya prosesinin başlamasına uzunmüddətli həll yolu kimi baxırıq. Rusiya Federasiyası Cənubi Qafqazdakı vəziyyətin ardıcıl normallaşmasını təşviq etmək üçün hər cür şəkildə davam etməyə hazırdır"**

Rusiya Xarici İşlər Nazirliyi, Rusiyanın Azərbaycan-Ermənistan sərhədindəki vəziyyəti diqqətlə izlədiyini, hərbi və sərhəd xidmətləri vasitəsi ilə operativ əlaqələr saxladığını qeyd edib.

### Tarixi münasibətlər üzərində əməkdaşlığın inkişafı

Mayın 18-də Azərbaycan Prezidenti İlham Əliyev Bakıya işgüzar səfərə gəlmiş Belarusiya Müdafiə naziri Viktor Xrenini qəbul edib.

Qəbul zamanı Azərbaycan dövlətinin başçısı Bakı ilə Minsk arasında hərbi və hərbi-texniki sahələrdə uğurlu əməkdaşlığı qeyd edib.

**Sitat: "Dediyim kimi, ölkələrimiz arasında hərbi, hərbi-texniki əməkdaşlıq uzun bir tarixə malikdir və çox yaxşı nəticələr verir. Bu səbəbdən həmkarınızla müzakirələrin və fikir mübadiləsinin bu sahədə əməkdaşlığın daha da inkişafı üçün faydalı olacağına əminəm"**

Prezident Belarus tərəfini hərbi-texniki əməkdaşlıq da daxil olmaqla bütün digər sahələrdə fəal əməkdaşlığa və qarşılıqlı dəstəyə davam edəcəyinə əmin edib. Əliyev Belarus şirkətlərinin Qarabağda görüləcək işlərdə iştirak etməkdə maraqlı olduqlarını da əlavə edib.

**Sitat: "Belarus şirkətlərini Azərbaycanın azad edilmiş ərazilərinin bərpasında iştirak etməyə dəvət etdim. Daha sonra sizə bu yerlərdə çəkilmiş fotoları göstərəcəyəm. Bunlar 30 ilə yaxındır işğal altında olan torpaqlarımızdakı vandalizmin və dağıdıcılığın səviyyəsini açıq şəkildə göstərir. Bildiyim qədər bu məsələlərdə iştirak etməyə artıq maraq var"**

Prezident vurğulayıb ki, yaxın gələcəkdə Belarus Prezidenti Aleksandr Lukaşenkonun Bakıya son səfəri zamanı əldə olunan razılaşmalar çərçivəsində Azərbaycanın kənd təsərrüfatı nazirinin başçılıq etdiyi nümayəndə heyəti Minskə səfər edəcək.

### Gürcüstandakı etnik qarşıdurmanı, nəhayət, dayandırdılar

Gürcüstanın Dmanisi şəhərində gürcülər və azərbaycanlılar arasında baş verən kütləvi davadan sonra vəziyyət sabitləşib, lakin əlavə polis qüvvələri orada qalır. Gürcüstan mətbuatının yazdığına görə, gərgin vəziyyət, Gürcüstan hakimiyyəti və ruhanilərinin nümayəndələrinin müdaxiləsindən sonra aradan qaldırılıb. Parlament üzvləri aralarında münaqişənin baş verdiyi yerli sakinlərlə görüşüblər və Şərqi Gürcüstan Müftisi Etibar Eminov və Gürcüstan Patriarxlığının ictimaiyyətlə əlaqələr xidmətinin rəhbəri, keşiş Andria Caqmaidze də hadisə yerinə gəliblər. Söhbətdən sonra tərəflərin barışığı təmin edilib.

Xatırladaq ki, Dmanisidə etnik azərbaycanlılarla yerli gürcülər arasında kütləvi toqquşmalar demək olar ki, bir gün davam edib. İğtişaşlar bazar günü axşam başlayıb. Daha sonra məlum olduğu kimi, beysbol ağacları və digər əlaltı vasitələrindən istifadə edərək qanlı bir toqquşmaya çevrilən qarşıdurma, yerli mağazalardan birinin sahibinin oğlanlara nisyə pivə satmaqdan imtina etməsindən sonra başlayıb. Təhqir olunmuş uşaqlar kömək gətiriblər və mağaza sahibi ilə yumruqları ilə məşğul olmağa çalışıblar. Mübarizəyə onlarla gənc cəlb edilib. Bəziləri ağır yaralanıb.

Qarşıdurmanın ertəsi günü Dmanisidə vəziyyət yenidən kəskinləşib- küçələrdə kütləvi davalar başlayıb. Toplananlar hətta jurnalistlərə hücum ediblər və münaqişə tərəfləri arasında canlı bir kordon yaradan polislərə təcavüz göstəriblər.

Gürcüstanın daxili işlər naziri Vaxtanq Qomelauri şəhərə gəlib. Daxili İşlər Nazirliyi əlavə qüvvələr səfərbər edərək uzun müddət ictimai asayişi bərpa etməyə çalışıb, amma boş yerə. Polis, yalnız xüsusi keçidlərlə daxil oluna bilən şəhərdən giriş-çıxışı məhdudlaşdırıb. Yalnız yerli din xadimlərinin səyi sayəsində qarşıdurmanı dayandırmaq və hamını barışığa dəvət etmək mümkün olub.

### Pilotsuz təyyarələrlə havadan kəşfiyyat

Azərbaycan ordusunda hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatlarının cəlb olunduğu təlimlər davam edir. Pilotsuz hava vasitələri, simulyasiya edilmiş bir düşmənin müdafiəsinin dərinliyindəki hədəflər daxil olmaqla mövqelərinin aşkarlanması və müvafiq məlumatların komanda məntəqələrinə ötürülməsi problemini həll edir.

Xatırladaq ki, 16 may bazar günü Azərbaycan ordusunda müxtəlif qoşun növlərinin iştirakı ilə təlimlər başlayıb. Təlimlərdə 15 minədək hərbçi, 300-ə qədər tank və zirehli texnika, 400-ə qədər müxtəlif çaplı raket və artilleriya qurğusu, 50-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları iştirak edir.

Eyni zamanda, ASELSAN tərəfindən hazırlanmış yeni bir Saka dronu bu gün Türkiyədə uğurla sınaqdan keçirilib. Türk pilotsuz təyyarəsi kəşfiyyat və nəzarət məqsədi ilə hazırlanmışdır. Çəkisi təxminən 600 qramdır. Layihənin birinci mərhələsi çərçivəsində bir avtopilot sistemi, bir enerji qurğusu, qatlanan qollar və dəyişdirilə bilən batareyalı kompakt bir pilotsuz platforma hazırlanıb. Layihənin 2-ci mərhələsində komponentlərin ixracından asılılığın minimuma endirilməsi və sistemlərin təkmilləşdirilməsi istiqamətində addımlar atılır. Bundan əlavə, şirkətin mühəndisləri bir hədəfi müəyyənləşdirmək və izləmək üçün avtonom bir sistem üzərində işləyir, həmçinin qapalı məkanlardan şəkillər əldə etmək və qaru nəqliyyat vasitələrinin müəyyən məsafələrdəki marşrutlarını izləmək üçün bir sistem hazırlayırlar.

***Tərcümə - Elçin Bayramlı***

Verilişə buradan baxa bilərsiniz

https://www.youtube.com/-watch?v=htflqRc1oKE&feature=-youtu.be

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

Son səhifə

20 may

# Levandovski "Bavariya"dan ayrılır?

***Almaniyanın "Bavariya" klubu, polşalı ulduz futbolçusu Robert Levandovski klubdan ayrıla bilər. Qol.az "Sport Bild"ə istinadən xəbər verir ki, 32 yaşlı hücumçu idman direktoru Hasan Salihamidziçin transfer siyasətindən məmnun deyil. O, İvan Perişiç kimi təcrübəli oyunuların büdcədəki problemlər səbəbi ilə komandanın heyətində yer almaması, Duqlas Kosta və Buna Sarr kimi futbolçulara çox pul xərcləndiyinə gtörə narazıdır. Levandovskinin "Bavariya" ilə müqaviləsi isə 2023-cü ilin yayına qədərdir. Qeyd edək ki, polşalı oyunçu bu mövsüm Bundesliqada 40 qol vurub.***



# Formula 1 iştirakçılarının Bakıda koronavirus testindən keçirilmə qaydası açıqlandı




Bakıda keçiriləcək Formula 1 Azərbaycan Qran Prisində iştirak etmək üçün ölkəyə gələn komanda üzvləri dərhal koronavirus testindən keçiriləcək. Bu barədə SİA-ya Bakı Şəhər Halqasından məlumat verilib. Bildirilib ki, beynəlxalq uçuş qaydasına əsasən, uçmazdan 48 saat əvvəl test verilməsi tələb edilir. Yəni bu, Formula 1 ilə əlaqədar deyil, test verilməsini aviaşirkətlər tələb edir.

Lakin bununla belə iştirakçılar Azərbaycana gələn kimi də dərhal testdən keçiriləcək. Burada qaldıqları müddətdə onlardan hər 5 gündən bir test götürüləcək, yəni əgər 5 gündən artıq ölkədə qalacaqlarsa, yenidən test aparılacaq.

Bakı Şəhər Halqasının əməkdaşlarından da əsas risk qrupları ilə, yəni pilotlar, komanda üzvləri ilə təmasda olanlar testdən keçəcək. Qeyd edək ki, Azərbaycanda Formula 1 Qran Prisinin 2021-ci il 4-6 iyunda keçirilməsi nəzərdə tutulur.

# Sosioloqdan təpki: "Mobil telefon onlayn xəyanətə səbəb olur"



**"Hal-hazırda əlimizdəki telefon təkcə klassik və köhnə mənada deyil. Bu telefon çox funksiyalıdır. Yəni bu, köhnə versiyalar kimi yalnız zəng məqsədi daşımır. Yeni telefon həm fotoaparatı, həm kameranı əvəz edir. Ona görə də insanlar telefondan ayrıla bilmir və müxtəlif məqsədlər üçün istifadə edirlər. Təbii ki, kimin hansı məqsədlə istifadə etməyindən də çox şey asılıdır. Əgər telefondan istifadə edib həyatda fəallıq göstərirlərsə, öz işlərini qururlarsa və yaxud maariflənirlərsə burada mənfi hal yoxdur. Əksinə, bu, faydalıdır". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Əhməd Qəşəmoğlu deyib.**

**Onun sözlərinə görə, telefondan asılılığın qorxulu tərəfi o zaman başlayır ki, insan telefondan elə məqsədlə istifadə edir ki, bu, onun həyatında mənfi rol oynayır: "İnsan həyatı üçün mühüm olan 3 istiqamət var: fiziki sağlamlıq, mənəvi zənginlik və əməyə yaradıcı münasibət. Əgər insanın fiziki sağlamlığı get-gedə yaxşılaşırsa, mənəvi zənginliyi və əməyə yaradıcı münasibəti artırsa, onda bu çox gözəl haldır. Ona görə də, telefon bir vasitədir. Bu vasitədən elə şəkildə istifadə etmək lazımdır ki, bu sadaladığım üç amilə müsbət təsir etsin. Telefon fiziki sağlamlığa o mənada təsir edə bilər ki, bir çox adam sosial şəbəkələrdə yaxşı idman növləri, xörəklər, müalicə yolları və s. öyrənə bilər. Mənəvi zənginlik üçün musiqilər dinləmək faydalıdır. Əməyə yaradıcı münasibəti artırmaq üçün yeni sxemlər öyrənmək olar".**

**Sosioloq sözlərinə belə davam edib: "Təəssüflər olsun ki, statistik olaraq Azərbaycan əhalisi arasında telefondan müsbət istifadə edənlərin sayı azdır. Bu da telefondan, internetdən, sosial şəbəkədən istifadə mədəniyyətidir. Telefonda elektromaqnit dalğaları var ki, onu çox əldə tutmaq, ürəyə yaxın saxlamaq ziyandır. Bu, həm gözə, həm də əsəblərə təsir edir və fiziki sağlamlığa zərbə vurur. Sosial şəbəkə vasitəsilə arzu olunmayan insanlarla ünsiyyət qurulur və lazımsız məlumatlarla qarşılaşırıq. Həmçinin, dini baxımdan da cəhalətlə qarşılaşır. Telefon tələbələri və şagirdləri dərsdən yayındırır. Sosial şəbəkələr onlayn xəyanətə şərait yaradır. Bunun qarşısı alınmalıdır. Cəzalar düşünülməlidir. Telefonda təsadüfi tanışlıqlar qızların evdən qaçmağına, oğlanların isə arzuolunmaz hərəkətlərə cəlb olunmağına şərait yaradır".**

***Ayşən Vəli***

# Pişiklərdə tük tökülməsinin qarşısını necə almaq olar?



MARAQLI FAKTLAR

Pişikləri olanların ən narahat olduğu problem tük tökülməsidir. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, pişiklər bir çox səbəbdən xəzlərini tökə bilər və bu son dərəcə təbiidir. Pişik tüklərinin tökülməməsi üçün edə biləcəyiniz bəzi şeylər var. Lakin, ilk növbədə tükün niyə töküldüyü araşdırılmalıdır. Pişiklərdə tük tökməsi tamamilə təbiidir. Ancaq həddindən artıq tökülmədə müdaxilə şərtdir. Problemin qarşısını almaq üçün istifadə edilə bilən dərmanlar var. Pişiklərin saç tökülməsinin qarşısını almaq üçün əvvəlcə pişikin sağlamlıq vəziyyətini yoxlatmalısınız. Baytar həkimlərin iştirakı ilə aparılan sağlamlıq müayinəsi ilə pişiyin tük tökməsinin səbəbi məlum olacaq.

### Xəstəliklərə səbəb ola bilər

Pişik tüklərinin tökülməsinə səbəb olan dəri xəstəlikləri də ola bilər. Eyni zamanda, pişiklər susuz qaldıqda tüklərini tökə bilərlər. Bu səbəbdən kifayət qədər su içməyinizi təmin edərək pişik tüklərinin tökülməsinin qarşısını ala bilərsiniz.

### Qarşısı necə alına bilər?

Qarşısı alınacaq bir vəziyyətdir. Bunun üçün tükləri mütəmadi olaraq daranmalıdır. Bu daranma üsulu tük tökülməsinin qarşısını alan ən asan üsullardan biri olaraq bilinir. Onsuz da pişiklər daranmağı və oxşanmağı sevən canlılardır.

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**